

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Xüsusi buraxılış

Sayı: 21 (24.456)

4 iyun 2025-ci il, çərşənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


## Azərbaycanın enerji sahəsində keçdiyi uğurlu yolun bariz təzahürü –

# "Bakı Enerji Həftəsi"

*Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə respublikamız 30 il bundan öncə – 1994-cü ilin sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında 13 iri neft şirkəti arasında Bakıda "Əsrin müqaviləsi"nin bağlanmasına nail olmaqla dünya miqyasında əsl siyasi, iqtisadi müstəqillik qazanmaq yoluna qədəm qoyub. Nəticədə, bu gün ölkəmiz nainki ənənəvi neft, qaz sahəsində, son illərdə bərpa olunan enerji istehsalı, ixracı, "yaşıl enerji"dən səmərəli istifadənin genişləndirilməsi istiqamətində də qətiyyətli mövqe sərgiləyir, imic qazanır. Bu xüsusda əsası müstəqil Azərbaycanın beynəlxalq ixtisaslaşmış sərgisi olan Xəzər Neft və Qaz sərgisi ilə qoyulan və hər il keçirilən "Bakı Enerji Həftəsi" ölkəmizin enerji strategiyasında yeni perspektivlərin açılması, faydalı əməkdaşlıqların qurulması baxımından olduqca əhəmiyyətli platforma rolunu oynayır.*

Səhifə ⇨ 4




# Üç qardaşın zirvəsi: Laçın görüşü



Səhifə ⇨ 2

## Naxçıvanda "Qlobal İnformasiya Mühiti və Media Trendləri" konfransı – "MEDİAFEST-2025" keçirilib




Səhifə ⇨ 5

## Naxçıvanda "Uşaqların rəngli dünyası" festivalı keçirilib



Səhifə ⇨ 14

## Bakıdan dünyaya minifutbol zəfəri



Səhifə ⇨ 19



# Üç qardaşın zirvəsi: Laçın görüşü

## Prezident İlham ƏLİYEV:

*“Azərbaycan, Türkiyə və Pakistan – üç qardaş ölkə əməkdaşlığı ildən-ilə, gündən-günə gücləndirirlər. Biz yaxşı günlərdə də, ağır günlərdə də hər zaman bir-birimizin yanındayıq, həmrəylik, dəstək göstəririk. Bu gün ikinci üçtərəfli Zirvə görüşündə bir daha bizim strateji əməkdaşlığımız təsdiqləndi. İşğaldan azad edilmiş Laçında, Şərqi Zəngəzurda iki qardaş ölkənin liderlərinin iştirakı ilə keçirilən bugünkü mərasim Azərbaycan-Türkiyə-Pakistan birliyinin, qardaşlığının növbəti təzahürüdür.”*

2025-ci ilin 28 mayında – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 107-ci ildönümündə Laçında baş tutan Azərbaycan, Türkiyə və Pakistan liderlərinin üçtərəfli zirvə görüşü yalnız diplomatik hadisə olmayıb, həm də siyasi, hərbi və mədəni baxımdan yeni bir dövrün rəmzinə çevrildi. Bu görüşdə hər üç ölkənin ən yüksək səviyyədə təmsil olunması onu, sadəcə, dostluq deyil, strateji müttəfiqlik müstəvisinə də daşıdı. Bu zirvə görüşü üçün Laçının, onun uca dağlarının seçimi isə təsadüfi deyildi. Otuzillik işğaldan azad edilmiş ərazidə keçirilən zirvə görüşü Azərbaycanın gücünü və qələbəsini simvolizə edərək üç qardaşın zirvəsi kimi tarixə keçdi.

Ötən ilin iyulunda Astanada baş tutmuş birinci Türkiyə-Azərbaycan-Pakistan üçtərəfli zirvəsinin ardınca Laçında keçirilmiş ikinci zirvə dərin rəmzi məna daşıyırdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev buradakı çıxışında Laçında keçirilən görüşün tarixi əhəmiyyətini vurğulamaqla yanaşı, ölkəmizin 44 günlük Vətən müharibəsində əldə etdiyi Zəfərin regionda yaratdığı yeni reallıqlardan bəhs edərək qeyd etdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərək beynəlxalq hüququn prinsiplərini icra etmiş oldu. Bu yalnız Ermənistan üzərində qələbə deyildi, həm də beynəlxalq ədalətin təntənəsi idi. Prezidentin fikrincə, Laçında keçirilən bu görüş Azərbaycanın suverenlik və sülh çağırışının bir daha dünyaya təqdim olunmasıdır. Onun çıxışında diqqətçəkən məqam isə Azərbaycanın təkcə regional güc deyil, eyni zamanda beynəlxalq əməkdaşlıq platforması kimi çıxış etməsidir. Azərbaycanın rəsmi dövlət bayramının, 28 May – Müstəqillik Gününün qardaş ölkələrin liderləri ilə birgə Laçında qeyd olunmasını, burada görülən işlərə öz gözləri ilə şahidlik etmələrini məmnunluqla ifadə edən dövlət başçımız Prezident İlham Əliyev iqtisadi sahədə qardaş ölkələrlə həyata keçirilən çoxmilyardlıq investisiyaları, iqtisadiyyat, energetika, nəqliyyat, müdafiə, kənd təsərrüfatı, informasiya texnologiyaları və digər sahələrdəki əməkdaşlığı qeyd edərək rəqəmsal innovasiyalar, süni intellekt və kosmik texnologiyalar kimi yeni əməkdaşlıq sahələrinin əhəmiyyətini vurğuladı.

Azərbaycanın hər zaman qardaşlarından siyasi və mənəvi dəstək aldığını bildirən dövlət başçımız Türkiyənin və Pakistanın da çətin günlərində onların yanında olmaqdan böyük qürur duyduğunu məmnuniyyətlə ifadə etdi. Azərbaycanın Türkiyənin terrorçuluqla mübarizə istiqamətində əldə etdiyi uğurlara sevindiyini, Pakistan və Hindistan arasında yaranmış münaqişə zamanı ilk gündən Pakistanla həmrəy olduğumuzu vurğulayan dövlət başçımız qardaş ölkələrin birbirinə göstərdiyi dəstəyin dünya miqyasında yeni reallıqlar yaratdığını da xüsusilə qeyd etdi.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan zirvədəki çıxışında Azərbaycanın qazandığı Zəfərin bütün Türk dünyasının qürur mənbəyi olduğunu bildirdi. Azərbaycanın Müstəqillik Günündə Laçında olmağın, bu torpaqlardakı azadlıq və qüruru bölüşməyin 86 milyonluq Türkiyə adından böyük önəm daşıdığını bildirən Türkiyə lideri, təxminən, 350 milyon əhaliyə və 1,5 trilyon dollar iqtisadi gücə sahib qardaş ölkələrin qazandığı birgə uğurların əsasında həmrəyliyimizin dayandığını bildirərək Türkiyənin qardaş və dost ölkələrlə apardığı hərtərəfli əməkdaşlığın sülhə və inkişafa xidmət etdiyini vurğuladı. Zirvə görüşünün ardından təşkil olunmuş konsert proqramı öncəsi çıxışında isə qardaş ölkənin lideri Bakıdan Gəncəyə, Şuşadan Naxçıvana da Laçından salamlar göndərərək dahi Azərbaycan şairi Səməd Vurğunun “Azərbaycan” şeirindən səsləndirdiyi bəndlərlə doğmalığımızı bir daha bəyan etdi.

Zirvə görüşündə çıxış edən Pakistanın Baş naziri Şahbaz Şərif Azərbaycanın haqq mübarizəsinə verdikləri sarsılmaz dəstəyin davam etdiyini bəyan edərək vurğuladı ki, Pakistan Qarabağ məsələsində daim Azərbaycanın yanında olub və Ermənistanı dövlət kimi tanımayıb. Bununla yanaşı, o, Kəşmir məsələsində Hindistanın qanunsuz işğalına qarşı verdikləri mübarizədə Pakistan xalqının əzmini ifadə etdi. Bu bəyanatın Laçından verilməsi isə həm də onu göstərdi ki, üç ölkə arasında əməkdaşlıq yalnız dostluq deyil, həm də qlobal ədalət uğrunda ortaq mübarizədir. Pakistanın Baş naziri gözəl Laçında dalğalanan Azərbaycan, Türkiyə və Pakistan bayraqlarını görməyin onlarda yaratdığı hədsiz sevinc və fəxarət hisslərini bölüşməkdən məmnunluğunu ifadə etdi. O, son dövrlərdə bu tarixi münasibətlərin daha da inkişaf edərək Qarabağda, Kəşmirdə və Şimali Kiprdə bir-birimizin yanında olmağımızla gücləndiyini bildirdi.

Laçında keçirilən zirvə görüşü türk-İslam həmrəyliyinin təkcə tarixi deyil, eyni zamanda çağdaş geosiyasi reallıqlarda da davam etdiyini göstərdi. Buradan verilən açıq bəyanatlarla bir daha deyildi ki, Azərbaycan işğala, Türkiyə terrora, Pakistan isə Hindistanın silahlı təzyiqlərinə qarşı apardığı mübarizədə yalnız qələbə qazanmamış, həm də bu qələbələri ortaq dəyərlərlə birləşdirmişdir. Başqa sözlə, gələcək dövr artıq ortaq hədəflər və kollektiv iradə üzərində qurulacaq.

Əli CABBAROV

# Dünyaya açılan Laçın dəhlizi



Azərbaycanın müstəqillik tarixinin qızıl səhifələrinin yazıldığı bir dövrdə dövlət başçımız Prezident cənab İlham Əliyevin qardaş ölkələr və müttəfiqlərlə yaratdığı sıx strateji əlaqələr bu gün ölkəmizin iqtisadi-hərbi qüdrətini artırmaqla regionun güc sahibi olmasına imkan yaratmışdır. Otuz il əvvəl torpaqları işğal olunmuş və düşmənlə ağır şərtlər altında danışıqlar aparmağa məcbur edilmiş Azərbaycanın bu gün tam suveren ölkə kimi sərhəddən bir neçə kilometr aralıda – Laçında həyata keçirdiyi quruculuq işləri bu bölgənin sülh və inkişaf dəhlizi olacağının qarantiyasını verir. Üç qardaş ölkə – Azərbaycan, Türkiyə və Pakistan dövlət başçılarının Azərbaycanın rəsmi dövlət bayramı 28 May – Müstəqillik Günündə Azərbaycanda, onun Laçın rayonunda görüşərək dünyaya sülh və qardaşlıq mesajı vermələri mürəkkəb dünya düzəni fonunda hər kəsin maraqla gözlədiyi bir hadisə oldu. Bu hadisə çətin tarixi sınaqlar dövründə bir-birinin yanında olmuş və hazırda da bu bağlılığı ən yüksək səviyyədə nümayiş etdirən Azərbaycan, Türkiyə və Pakistan liderlərinin bu dəfə Laçından dünyaya açdığı dəhliz kimi yadda qaldı.

Laçın Azərbaycanın strateji nöqtəsi, Şərqi Zəngəzurdan Qərbi Azərbaycana açılan geniş qapıdır. Hələ XIX əsrin əvvəllərindən ermənilər Xankəndi və ətrafına köçürüləndə bölgənin açarı olaraq məhz Laçın və buradan keçən kommunikasiyalar ölkəmizin gələcək suverenliyi üçün həyati əhəmiyyət qazandı. Üzərindən onlarla il keçəndən sonra XX əsrin sonlarında Azərbaycanın qarşılaşacağı erməni separatizmi və torpaqlarımızın işğalı bir daha Laçını və bütövlükdə, Şərqi Zəngəzuru dünya gündəminə gətirdi. Otuz il ərzində Qarabağı işğal altına almış Ermənistan bu torpaqların heç zaman onlara aid ola bilməyəcəyini bilə-bilə məhz Ermənistanı Qarabağ separatçıları ilə birləşdirəcək olan xəyali “Laçın dəhlizi”ni ortaya atmaqla danışıqları uzatmaq və işğalı əbədi etmək istəyirdi. Beləcə, mayın 27-də Laçında olarkən dövlət başçımızın yerli sakinlərlə görüşü zamanı xatırlatdığı kimi həmin illərdə xalqımız Şuşanın, Laçının və digər rayonlarımızın işğal tarixlərini böyük qüssə ilə xatırlayır, bunu gələcək nəsillərimizin üzərinə düşəcək böyük yük kimi görürdü.

Lakin çürük erməni ordusunun belini qırıb və separatçı xuntanı tamamilə məhv etmiş qəhrəman Azərbaycan Ordusunun rəşadəti ilə bu gün torpaqlarımız tamamilə suverenliyinə qovuşmuş və bir zamanlar Laçın dəhlizini su yoluna çevirənlərin bir çoxu artıq İrəvanda oturub öz konstitusiyalarına yenidən baxmağa çalışır, bir çoxu isə Bakıdakı təcridxanada kağız stəkanda çay içir. Beləcə, zamanın çarxı birdən elə dəyişdi ki, Laçın meşələrindəki oduna da göz dikmiş ermənilər heç üzərindən beş il keçməmiş bu dəfə Laçın Beynəlxalq Hava Limanında ay-ulduzlu bayraqlı dövlətlərin liderlərinin səfərindən danışmağa məcbur oldular. Çünki Laçın artıq təkcə bir coğrafi məkan deyil, Laçın Azərbaycanın qüruru, Türk-müsəlman dünyasının birliyi və regionun gələcəyinə açılan qapıdır.

Laçın ölkəmizin böyük rayonlarından olub, iqtisadiyyatı heyvandarlıq, taxılçılıqla güclü olan və zəngin hidroenerji potensialına malik bölgəsidir. Lakin otuz il əvvəl Laçın faciəli günlərini yaşayırdı. 1992-ci il mayın 18-də Rusiya silahları ilə gücləndirilmiş Ermənistanın silahlı dəstələri Laçını işğal edəndən sonra bütün Qarabağa yollar açıldı və digər rayonlar üçün də erməni təhlükəsi qaçılmaz oldu. O zamanlardan “Laçın dəhlizi” ifadəsini eşidəndə yaddaşlarda erməni silahlıları, ayrılıq, qanlı işğal və zülm canlanırdı. Ermənilər bu dəhlizdən keçib, Qarabağda qondarma rejimə nəfəs verirdilər. Bütün dünya isə buna susur, Azərbaycanın haqq səsi cavabsız qalırdı.

Amma zaman dəyişdi. İndi tarix Azərbaycanın xeyrinə yazılır. Həmin acı günlər də tarixdə qaldı. 27 may günü Laçın rayonunun Bəylik kəndinə köçən sakinlərlə görüşü zamanı dövlət başçımız Prezident İlham Əliyevin dediyi kimi: ***“İndi bizim gözəl tarixlərimiz var, gözəl bayramlarımız var. 18 may – Laçının işğal günü, 8 may – Şuşanın işğal günü, onlar artıq tarixdə qaldı. Siz yaxşı bilirsiniz ki, işğal dövründə laçınlılar, şuşalılar, digər rayonlardan olan insanlar hər il işğal gününü matəm kimi qeyd edirdilər. Bu hər il onların dərdinə dərd əlavə edirdi, amma artıq o günlər yoxdur. Bizim indi 8 Noyabr günümüz var – Zəfər Günü, bizim 26 Avqust günümüz var – Laçının azad olunması günü və Laçının Günü kimi qeyd olunur. 23 Aprel var – o vaxt ki Laçın istiqamətində biz öz sərhədimizə sahib çıxdıq və bizim sərhədimizdə yerləşənləri kənarlaşdıraraq artıq mənfur Laçın dəhlizini də nəzarətə götürdük”.*** Beləliklə, artıq bu yol Azərbaycanı ayıran yox, Azərbaycanı dünyaya birləşdirən, Türk dünyasına bağlayan, Cənubi Qafqazın mərkəzinə çevrilən strateji arteriyadır.

2025-ci il mayın 28-i isə bu tarixi dəyişikliyin mühüm bir zirvəsi oldu. Qısa müddətdə Laçında aparılmış genişmiqyaslı quruculuq, yaşayış məntəqələrinin tikintisi, sənaye və kənd təsərrüfatı müəssisələrinin yaradılması ilə yanaşı, sayca 9-cu olan Laçın Beynəlxalq Hava Limanı Azərbaycanın regiondakı strateji rolunu daha da gücləndirdi. Bu hava limanı, sadəcə, bir infrastruktur deyil, güclü iradənin gələcəyə yönəlmiş strateji niyyətin, qəti və gələcəyə yönəlik baxışın ifadəsi kimi yaddaşlarda qaldı. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirakı ilə keçirilən möhtəşəm açılış mərasimi, əslində, Cənubi Qafqazın geosiyasi xəritəsində mühüm bir hadisəyə çevrildi. İndi artıq Laçın dəhlizi qlobal inteqrasiyanın yoluna çevrilib.

İşğaldan azad olunmuş ərazilərdə inşa olunan hava limanlarımız Azərbaycan iqtisadiyyatının, onun dost və qardaş ölkələrlə qurduğu strateji əlaqələrin gücünü göstərməklə yanaşı, eyni zamanda həm də logistika baxımından çox əhəmiyyətlidir. Gələcəkdə bütün Şərqi Zəngəzuru və Naxçıvanı əhatə edəcək daha geniş nəqliyyat və infrastruktur layihələrinin tərkib hissəsi kimi Laçın Beynəlxalq Hava Limanı vasitəsilə həm sərnişin, həm də yük daşımalarının intensivləşməsi mümkün olacaq. Nəticədə, Laçının beynəlxalq nəqliyyat dəhlizlərinə, xüsusilə Zəngəzur dəhlizi, Şimal-Cənub və Şərq-Qərb tranzit yollarına inteqrasiyası, bütövlükdə, regionun iqtisadi mənzərəsini dəyişə, Azərbaycanın qərb bölgələrini Naxçıvana, oradan isə Türkiyə və Avropaya çıxışını sürətləndirə bilər. Bu isə təkcə Azərbaycan üçün deyil, bütövlükdə, digər türk dövlətləri və Asiya nəhəngləri üçün də strateji əhəmiyyət daşıyır. Regionun turizm potensialını da artıracaq Laçın Beynəlxalq Hava Limanı Şərqi Zəngəzurun və Qarabağın füsunkar təbiətini və tarixi abidələri görmək istəyən turistlərə daha rahat şərait yaradacaq, bölgədə turizm, ticarət və xidmət sektoru sürətlə inkişaf edəcək.

Xalqımız daha bir böyük bayramı ay-ulduzlu bayraqlarla təntənə ilə qeyd etdi. Milli müstəqilliyimizin 107-ci ildönümünü Laçında bərabər bayram edən qardaş ölkələr – Azərbaycan, Türkiyə və Pakistan dövlət başçıları Laçın dəhlizinin artıq Azərbaycana işğal və terror yolu deyil, Laçının yenidən qurulmasına, türk və İslam xalqlarının birlik və tərəqqisinə açılan yol olduğunu dünyaya bəyan etdilər.

**“Şərq qapısı”**



# Azərbaycanın enerji sahəsində keçdiyi uğurlu yolun bariz təzahürü –

# “Bakı Enerji Həftəsi”




*(əvvəli 1-ci səhifədə)*

Ulu Öndərin təşəbbüsü ilə başlanan bu tədbir Prezident İlham Əliyevin məharətli diplomatiyası ilə ən nüfuzlu enerji tədbirlərindən birinə çevrilib və dünyanın diqqətini özünə yönəltməyi bacarıb. Bu baxımdan əminliklə söyləmək olar ki, ötən illərdə olduğu kimi, bu il iyunun 2-4-də paytaxt Bakıda keçirilən növbəti “Bakı Enerji Həftəsi” də enerji sahəsində beynəlxalq əməkdaşlığın və dialoqun möhkəmləndirilməsi baxımından mühüm hadisə kimi tarixə düşəcək. İyunun 2-də Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi “Caspian Oil and Gas”, 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi “Caspian Power” və 30-cu Yubiley “Baku Energy Forum”un rəsmi açılış mərasimində çıxış edərək respublikamızın enerji siyasətindəki yeni prioritetləri açıqladı, dünyanın enerji təhlükəsizliyinin təmini baxımından vacib məqamları diqqətə çatdırdı.

Bəli, reallıq ondan ibarətdir ki, bu gün Ümummilli Liderin yolunun təntənəsi özünü ən nəhəng layihələrin gerçəkləşməsində, Avropanın enerji təhlükəsizliyinin etibarlı təminatında göstərir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev “Bakı Enerji Həftəsi”nin başlanğıc tədbirində çıxışı zamanı da öncə Ulu Öndərin misilsiz tarixi xidmətlərini diqqətə çəkdi, Azərbaycanın müstəqillik uğrunda yolunun həmin tarixi məqamdan – “Əsrin müqaviləsi”nin bağlanmasından başladığını vurğuladı. Sitat: ***“Artıq qeyd edildiyi kimi, ilk neft-qaz sərgisi 1994-cü ildə təşkil edilmişdir. Həmin sərgidən dərhal sonra Azərbaycan beynəlxalq neft şirkətləri konsorsiumu ilə sonralar “Əsrin müqaviləsi” adlandırılan, regionda bütün geosiyasi və geoiqtisadi vəziyyəti dəyişdirən sazişi imzaladı. Bunlar Prezident Heydər Əliyevin baxışı sayəsində mümkün oldu. O, aydın şəkildə anlayırdı ki, xüsusilə də enerji sahəsində geniş beynəlxalq əməkdaşlıq olmadan – nəzərə alsaq ki, o zaman bizim iqtisadiyyatımızın ən cəlbedici sahəsi məhz enerji idi, – Azərbaycan çətinliklərin öhdəsindən gələ bilməyəcək və həqiqi müstəqil dövlət ola bilməyəcək. Çünki bu gün həmin dövrə nəzər salanda aydın olur ki, müstəqillik uğrunda yol həmin tarixi məqamdan başladı”.***

Bu gün yalnız Azərbaycanın deyil, böyük coğrafiyanın mühüm enerji platforması missiyasını uğurla daşıyan “Bakı Enerji Həftəsi”, ilk növbədə, 30-cu dəfə təşkili ilə, yəni yubiley tədbiri kimi diqqətlərə hakim kəsilir. Yubiley tədbirlərində energetika sahəsində mövcud vəziyyəti, yeni imkanları və perspektivləri müzakirə etmək üçün 39 ölkədən 267 şirkətin nümayəndəsi iştirak edir. Ümumilikdə isə 30 il ərzində “Bakı Enerji Həftəsi” Azərbaycanda neft, qaz və enerji sənayesinin inkişafına töhfə baxımından dünyanın 80 ölkəsindən 9 mindən çox şirkəti, 170 mindən artıq ziyarətçini cəlb edib. Yubiley sərgisində iştirakçıların 35 faizini yeni şirkətlərin təşkil etməsi isə Azərbaycanın neft, qaz və enerji sektoruna beynəlxalq miqyasda marağın artmaqda davam etdiyini əyani şəkildə göstərir. Bu göstəricinin iqtisadi əhəmiyyətini vurğulayan, gücləndirən, əsaslandıran digər bir məqam isə son bir ildə əldə olunan uğurlardır. Yəni əgər ötən ilin bu vaxtı respublikamız səkkiz ölkəyə təbii qaz ixrac edirdisə, hazırda həmin ölkələrin sayı 12-yə çatıb və yeni təşəbbüslər bu sayın son hədd olmadığını deyir. Ən əsas amil isə odur ki, həmin 12 ölkədən 10-u Avropa məkanında yerləşir, 8-i isə Avropa İttifaqının üzvüdür. Azərbaycan qazına artan tələbatın nəticəsidir ki, 2021-ci ildə Avropaya 8 milyard kubmetr qaz ixrac edilmişdirsə, bu rəqəm 2022-ci ildə 11,4 milyard, 2023-cü ildə, təxminən, 12 milyard, 2024-cü ildə isə 13 milyard kubmetr təşkil edib. Ümumilikdə, 2024-cü ildə ölkəmiz xarici bazarlara 25 milyard kubmetr qaz ötürüb. Qısa zamanda belə ciddi uğurların əldə olunması, təbii ki, zamanında atılan mütərəqqi addım, reallaşdırılan balanslı diplomatiya, məqsədyönlü iqtisadi siyasət, nəhəng layihələrin icrası, enerji resurslarından səmərəli istifadə, investor cəlbi üçün əlverişli biznes mühitinin formalaşdırılması və faydalı əməkdaşlığın qurulmasından irəli gəlir...

“Bakı Enerji Həftə”si çərçivəsində 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji “Caspian Power” sərgisi isə Azərbaycanın gələcəyə dair milli prioritetlərini həyata keçirmək baxımından önəmli təqdimat xarakteri daşıyır. Burada beynəlxalq və yerli şirkətlərin energetika və “yaşıl enerji” mənbələrinin inkişafı, istifadəsi sahəsindəki yeniliklər, həmçinin bununla bağlı təkliflər gündəmdə olacaq. Bu xüsusda ölkə başçısının 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq olunan “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ni diqqətə çəkmək olar ki, bu sənəddə “yaşıl enerji”yə keçid xüsusilə diqqət mərkəzindədir. Sosial-iqtisadi inkişafa dair beş Milli Prioritetlər sırasında yer alan “təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” prioritetləri üzrə ötən dövrdə bir sıra layihələrə imza atılıb. Şərqi Zəngəzur, Qarabağ və Naxçıvanın “yaşıl enerji zona”ları elan edilməsi və bu istiqamətdə görülən işlər sözügedən prioritetlərin icrası baxımından xüsusi əhəmiyyət daşıyır. Nümunə üçün işğaldan azad olunan ərazilərdə, o cümlədən Kəlbəcər və Laçın rayonlarında su elektrik stansiyalarının tikintisi, eləcə də Naxçıvanda bərpa olunan enerji mənbələrinə dair mövcud infrastruktur, muxtar respublikada gələcəkdə “yaşıl enerji”nin layihələndirilməsi üçün 7992 hektar ərazinin ayrılması və bunlara müvafiq tədbirlərin reallaşdırılması yönündə atılan addımları qeyd etmək olar. Bütün bu tədbirlərin məntiqi nəticəsi kimi təsadüfi deyildir ki, Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA) Azərbaycanın “yaşıl enerji” ilə bağlı imkanlarını yüksək qiymətləndirir. Təşkilatın 2024-cü il üzrə hesabatında qeyd olunur ki, Azərbaycan 2014-2023-cü illər ərzində bərpa olunan enerji ehtiyatlarını 567 meqavat artıraraq 1688 meqavata çatdırıb.

Azərbaycanın “yaşıl enerji”yə dair siyasəti təkcə milli deyil, həm də ümumbəşəri xarakter daşıyır, özündə beynəlxalq prioritet və məqsədlər ehtiva edir, sağlam dünya naminə birgə fəaliyyətə çağırış missiyasını uğurla yerinə yetirir. Bu xüsusda 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanan “Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”də əsas istiqamətlər müəyyənləşdirir. Bu saziş Avropanı “yaşıl enerji” ilə təmin edən əsas kanal kimi Qara dənizin dibi ilə 1100 kilometr uzunluğunda sualtı kabelin çəkilməsini nəzərdə tutur ki, bununla da Azərbaycan Avropaya “yaşıl enerji” körpüsü salmağı hədəfləyib. Sözügedən nəhəng layihə Azərbaycanla Avropa ölkələrinin əməkdaşlığının gücləndirilməsi baxımından da olduqca önəmlidir və tərəflərin müasir çağırışlara əsaslanan hədəflərinə uyğundur. Ümumilikdə, götürdükdə imzalanmış bütün müqavilələrə və sərmayə öhdəliklərinə əsasən respublikamız 2030-cu ilədək 6,5 giqavat həcmində istehsal edilə biləcək bərpa olunan enerji gücünə malik olacaq. Bu da Azərbaycanın ümumi enerji istehsalının 35 faizdən çoxunu təşkil edəcək. Ötən il Bakının COP29 kimi mötəbər tədbirə ev sahibliyi etməsi, konfransın yekununda əldə olunan tarixi razılaşmalar da həm dünya ictimaiyyətinin, həm də ölkəmizin öz məqsədinə yaxınlaşması yolunda mühüm perspektivlər açdı. Prezident İlham Əliyev “Bakı Enerji Həftəsi” çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi “Caspian Oil and Gas”, 13-cü Xəzər Beynəlxalq Energetika və “Yaşıl Enerji” Sərgisi “Caspian Power” və 30-cu Yubiley “Baku Energy Forum”un rəsmi açılış mərasimində çıxışı zamanı da Azərbaycanın “yaşıl enerji” gündəliyinin olduqca iddialı olduğunu vurğuladı, COP29-un bu istiqamətdə hədəflərə çatmaqda mühüm rol oynadığını bildirdi: ***“COP29-la bağlı daha bir hədəfimiz Qlobal Cənub və Qlobal Şimal arasında körpünün qurulması idi və biz buna nail ola bildik. Hədəf ətraf mühiti ən çox çirkləndirən ölkələr, – inkişaf etmiş ölkələr, – və bundan əziyyət çəkən, hətta bəziləri-nin mövcudluğuna təhlükə olan inkişafda olan ölkələr arasında etimadın artırılması idi. İnkişaf etməkdə olan kiçik ada dövlətlərinə yardım paketi də COP29-da elan edildi və biz köməyimizə ehtiyacı olan ölkələrə dəstək verməyə davam*** edəcəyik”.

Ümumilikdə, onu qeyd etmək olar ki, 30-cu dəfə keçirilən “Bakı Enerji Həftəsi” ənənəvi enerji mənbələrindən bərpa olunan enerjiyə qədər geniş məzmunda məsələlərin müzakirə edilməsinə geniş imkanlar açır. Ötən il olduğu kimi, bu il də “yaşıl enerji” istehsalı, ixracına dair yeni müqavilələrin imzalanması nəzərdə tutulub və özlüyündə bu amil respublikamıza artan etimadın göstəricisidir. Bütün bunlar belə deməyə əsas verir ki, həm dünyadakı iqtisadi prosesləri, mövcud regional reallıqları ortaya qoyaraq ənənəvi enerjinin miqyasının genişləndirilməsi həm də müasir çağırışlara uyğun bərpa olunan enerjinin təşviqi baxımından “Bakı Enerji Həftəsi” artıq yeni yanaşmaların və beynəlxalq enerji dialoqunun formalaşdığı nüfuzlu bir forum kimi tanınır, dünya enerji siyasətində rolunu bundan sonra daha da artıracaq. Bu beynəlxalq tədbir Azərbaycanın 30 illik enerji strategiyasının uğur göstəricilərindən biridir və enerji sahəsi üzrə beynəlxalq aləmdə artan hörmətinin, etimadının təqdimatıdır. Prezident İlham Əliyevin “Bakı Enerji Həftəsi”nin iştirakçılarına müraciətində dediyi kimi: ***“Bu tədbir Azərbaycanın enerji sahəsində keçdiyi uğurlu yolun, beynəlxalq nüfuzunun və uzaqgörən strateji baxışının bariz təzahürüdür. Enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, enerji təchizatının şaxələndirilməsi və yaşıl enerji üzrə davamlı inkişaf bu gün də ölkəmizin əsas prioritetləri sırasındadır. Bu istiqamətdə görülən işlər qlobal enerji bazarında Azərbaycanın etibarlı və məsuliyyətli tərəfdaş mövqeyini daha da gücləndirir”.***

**✍ Nail ƏSGƏROV**

# Naxçıvanda "Konstitusiya: hüquqi və demokratik islahatların mənbəyi, suverenliyin hüquqi əsası" mövzusunda konfrans keçirilib

Mayın 27-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Konstitusiya: hüquqi və demokratik islahatların mənbəyi, suverenliyin hüquqi əsası" mövzusunda elmi-nəzəri konfrans keçirilib.



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və digər konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə tər güllər düzüblər.











Heydər Əliyev Muzeyində olan ziyarətçilərə Ümummilli Liderin irsinin dəyərli nümunələrindən ibarət eksponatlar barədə ətraflı məlumat verilib.

Heydər Əliyev Sarayında təşkil olunan rəsm və dekorativ-tətbiqi sənət nümunələrindən ibarət sərgiyə baxış olub. Bütöv Azərbaycan xəritəsinin əks olunduğu xalça, Ümummilli Liderimizin portretləri, tarix və mədəniyyətimizə dair digər əsərlər maraq doğurub.

Konfransda Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra müstəqil Azərbaycan Respublikası Konstitusiyasının tarixinə həsr olunmuş videoçarx təqdim edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli konfransda çıxış edərək bildirib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" muxtar respublikada yeni inkişaf mərhələsinin başlanğıcını qoyub. Proqram çərçivəsində qarşıya qoyulan prioritetlərdən biri olan institusional islahatların aparılması nəticəsində muxtar respublikanın dövlət orqanları ilə Azərbaycan Respublikasının dövlət orqanları arasında əməkdaşlığın gücləndirilməsi, inteqrasiyanın aparılmasına nail olunub. Bununla yanaşı, proqramda nəqliyyat-logistika infrastrukturunun yenilənməsi, iqtisadiyyatın şaxələndirilməsi, rəqəmsal idarəetmənin tətbiqi, enerji səmərəliliyinin artırılması və əhalinin rifahının yüksəldilməsi də prioritetlər kimi müəyyən olunub.

Səlahiyyətli nümayəndə qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında Prezident İlham Əliyevin siyasi iradəsi və qətiyyətli qərarları ilə vətəndaşların pozulmuş mülkiyyət hüquqlarının bərpası istiqamətində sistemli və ədalətli tədbirlər həyata keçirilir. Uzun illər ərzində müxtəlif səbəblərdən mülkiyyət hüquqları pozulmuş minlərlə vətəndaşımızın hüquqları məhkəmə və inzibati qaydada bərpa olunur, kompensasiyalar ödənilir, qanunsuz zəbt olunmuş əmlaklar qaytarılır. Muxtar respublikada artıq 642 nəfərin hüququ bərpa olunub və bu istiqamətdə işlər davam etdirilir. Bu addımlar bir daha göstərir ki, Konstitusiyada təsbit edilmiş mülkiyyət toxunulmazlığı prinsipi dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir və hər bir vətəndaşın hüququ qorunur.



Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxışında vurğulayıb ki, Naxçıvan tarixin hər bir dövründə Azərbaycanın ictimai-siyasi həyatında öz çəkisi ilə xüsusi olaraq seçilib. Naxçıvan Azərbaycan dövlətçiliyinin formalaşmasında, 1990-cı illərdə xalqımızın yenidən istiqlala qovuşmasında əvəzsiz xidmətlər göstərib. 1990-1993-cü illərdə Naxçıvanda siyasi fəaliyyət göstərən Ulu Öndər Heydər Əliyev dövlətimizin həqiqi müstəqilliyinin bünövrəsini məhz burada qoyub. Ümummilli Liderin fəaliyyətinin Naxçıvan mərhələsində gördüyü işlər, atdığı addımlar 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra müstəqil dövlət quruculuğunda mühüm rol oynadı. Dərin zəkaya malik olan böyük ictimai-siyasi xadim bilirdi ki, Azərbaycanın daimi müstəqilliyinin təminatı üçün yeni ruhda yazılan və azad xalq tərəfindən qəbul edilən müasir Konstitusiyaya ehtiyac var. 1995-ci il noyabrın 12-də Ulu Öndər Heydər Əliyevin şah əsəri – Azərbaycan tarixində ilk müstəqil respublikanın Konstitusiyası ümumxalq səsvermə yolu ilə qəbul edildi. Konstitusionalizm quruculuğunda növbəti mərhələ isə 1998-ci il iyulun 14-də Ümummilli Liderin təşəbbüsü ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılması olub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi institutunun yaradılmasını olduqca mühüm addım kimi dəyərləndirən Fərhad Abdullayev qeyd edib ki, bu islahat bölgədə idarəetmə üsulunun səmərəliliyinin daha da artırılmasına, həmçinin iqtisadiyyatın inkişafına öz töhfəsini verir.



Konfransda çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşı bildirib ki, bu il Azərbaycan Konstitusiyasının qəbulunun 30 illiyi ilə yanaşı, dövlət suverenliyimizin tam bərpasının və ərazi bütövlüyümüzün təmin olunmasının real nəticələrini yaşadığımız dövrdür. O qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi təsadüfi deyil. Bu qərar müstəqil dövlətçilik tariximizin mühüm dövrlərini əhatə etməklə yanaşı, həm də gələcəyə hesablanmış strateji bir çağırışdır.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin də çıxışı dinlənilib.

Tədbir bədii hissə ilə davam edib.

***

Həmin gün tədbir iştirakçıları Naxçıvan şəhərindəki "Əcəmi Seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksi ilə tanış olublar.

Tanışlıq zamanı ərazidəki XII əsr abidəsi, Əcəmi Əbubəkr oğlunun dövrümüzə çatmış ən gözəl əsəri olan Möminə xatun türbəsi haqqında məlumat verilib. Qeyd olunub ki, Prezident İlham Əliyev dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncamla orta əsrlər Naxçıvan şəhərinin əzəmətini əks etdirən Möminə xatun türbəsi orijinal quruluşu əsasında bərpa olunacaq.

Həmçinin Ümummilli Lider Heydər Əliyevin "Əcəmi Seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksindəki büstü də ziyarət edilib.

# Naxçıvanda "Qlobal İnformasiya Mühiti və Media Trendləri" konfransı – "MEDİAFEST-2025" keçirilib

Mayın 30-da Heydər Əliyev Sarayında Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən Naxçıvanda "Qlobal İnformasiya Mühiti və Media Trendləri" konfransı – "MEDİAFEST-2025" keçirilib.

Tədbir Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü, Medianın İnkişafı Agentliyi, Mətbuat Şurası və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin orqanı olan "Şərq qapısı" qəzetinin birgə təşkilatçılığı ilə baş tutub.



Tədbir Ümummilli Lider Heydər Əliyevin abidəsinin ziyarəti ilə başlayıb. İştirakçılar Ulu Öndərin xatirəsini ehtiramla yad edərək abidə önünə gül dəstələri qoyublar.

Sonra Heydər Əliyev Sarayının foyesində təşkil olunmuş sərgi zonaları və stendlərlə tanışlıq olub. Burada "Şərq qapısı" qəzeti, Naxçıvan televiziyası (NTV), Naxçıvan Dövlət Universiteti və "Məktəbli" qəzeti stendlərində Naxçıvan mediasının fəaliyyəti, tarixi, müasir media məhsulları və gənc jurnalistlərin fəaliyyətlərinə dair materiallar nümayiş etdirilib. Həmçinin tədbirdə "Kapital Bank", "PAŞA Həyat Sığorta", "Sirab" ASC və "Ləzzət" Şirkətlər Qrupu kimi sponsorların stendləri də öz yerini alıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və digər konfrans iştirakçıları gənc jurnalistlərin təqdim etdiyi arzular lövhəsinə xoş diləklərini qeyd ediblər.

Naxçıvan televiziyasının stendinə baxış zamanı televiziyanın "Azerspace-1" peyki üzərindən rəsmi yayımı həyata keçirilib.

"MEDİAFEST" iştirakçıları xatirə fotoları çəkdiriblər.

ardı 6-cı səhifədə





















Sonra "Qlobal İnformasiya Mühiti və Media Trendləri" konfransı öz işinə başlayıb.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirin aparıcıları Jalə Həsənli və Nicat Quliyev hər kəsi salamlayaraq dövlət başçımızın milli mətbuatımızın 150 illik yubileyinin keçirilməsi ilə bağlı Sərəncamını diqqətə çatdırıb, Sərəncamda mediamızın gələcək planları və hədəflərinin açıq aydın göstərildiyini vurğulayıblar.

Sonra milli mətbuatımızın tarixindən və müasir inkişafından bəhs edən videoçarx izlənilib və səhnəcik nümayiş etdirilib.

Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə bütün mətbuat işçilərini səmimi-qəlbdən təbrik edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ölkəmizdə mətbuata, jurnalist əməyinə çox böyük hörmət, diqqət və dövlət dəstəyinin olduğunu qeyd edib. Vurğulayıb ki, Ümummilli Liderimiz Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə










qayıdışından sonra Azərbaycanda mətbuatın inkişafı sahəsində əsaslı işlər görülüb, dövlət-mətbuat münasibətləri yeni mərhələyə qədəm qoyub. Bu gün Ümummilli Liderimizin yolunu bütün sahələrdə uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev mətbuatın inkişafına da xüsusi qayğı göstərir. Dövlət başçımızın "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" 2025-ci il 25 aprel tarixli Sərəncamı mətbuatın inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Son illərdə muxtar respublikada görülən işlərdən danışan səlahiyyətli nümayəndə deyib ki, Prezident İlham Əliyevin xüsusi diqqəti ilə hazırlanan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" islahatların yol xəritəsi rolunu oynayır. 2022-ci ilin icra göstəricilərinə nisbətən dotasiya istisna olmaqla büdcə daxilolmaları 2024-cü ildə 32 faiz artıb. Bu da 198 milyon manata qarşı 262 milyon manat olub. Azərbaycan Respublikasının dövlət büdcəsindən muxtar respublikaya ayrılan dotasiya da mərhələli şəkildə azaldılıb. 2022-ci ilin göstəricilərinə nisbətən mərkəzi büdcədən ayrılmış dotasiyanın həcmi 425 milyon manatdan 185 milyon manata enib. Bu, 56 faiz azalma deməkdir. O cümlədən 107 milyon manat mərkəzi büdcəyə ötürülüb. Bununla da, cəmi iki il ərzində Naxçıvana ayrılan dotasiya azalıb ki, bu da ölkə büdcəsinə olan yükü əhəmiyyətli dərəcədə yüngülləşdirib. Yerli gəlirlərdə də ciddi artım müşahidə olunub. Əgər 2022-ci ildə yerli gəlirlər büdcənin 31,78 faizini təşkil edirdisə, 2024-cü ilin sonuna bu göstərici 58,55 faizə yüksəlib. Dotasiya istisna olmaqla 2024-cü ilin və 2025-ci








ilin 4 ayında büdcə daxilolmaları plana nisbətdə müvafiq olaraq 37 faiz və 30 faiz çox icra edilib. Büdcə xərcləri plana nisbətdə 2024-cü ildə 88 faiz, cari ilin 4 ayında 87 faiz icra edilib.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov çıxışında konfransın Azərbaycan mediası üçün mühüm praktik əhəmiyyət daşıyacağını bildirərək qlobal informasiya mühitinin media trendlərinin formalaşmasına təsirindən danışıb. Qeyd edib ki, qlobal media forumlarında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsən iştirak etməsi, media nümayəndələrinin çoxsaylı suallarını cavablandırması dövlətimizin haqq səsinin dünyaya çatdırılması baxımından əlamətdar hadisə olmaqla yanaşı, eyni zamanda başlıca vəzifəsi cəmiyyəti obyektiv və qərəzsiz informasiya ilə təmin etmək olan mediaya diqqət və qayğının müstəsna təzahürüdür.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin media ilə iş sektorunun müdiri Kamran Həsənov çıxışında bildirib ki, milli mətbuatın 150 illik yubileyi kimi tarixi bir hadisə ərəfəsində qədim Naxçıvanda "MEDİAFEST"in keçirilməsi simvolik məna daşıyır. Çünki mədəni və intellektual irsin formalaşmasında müstəsna rol oynayan, maarifçilik ideyalarının daşıyıcısı






olan Naxçıvan Azərbaycanın ümumi informasiya məkanının formalaşmasında mühüm yer tutur. Son illər Naxçıvan mediasının respublikanın sosial-iqtisadi inkişafında, mədəni irsinin tanıdılmasında və ölkəmizin ümumi media strategiyasına inteqrasiyasında mühüm addımlar atılıb. Bugünkü tədbir də bu prosesə və Naxçıvan mediasının daha da inkişafına yeni təkan verəcək.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid Azərbaycan Respublikası Prezidentinin milli mətbuatımızın 150 illik yubileyinin keçirilməsi ilə bağlı Sərəncamından bəhs edərək bu addımı dövlətimizin mediaya ciddi dəstəyinin nümayişi kimi dəyərləndirib. Milli mətbuatımızın inkişaf tarixinə diqqətçəkən Rəşad Məcid Ümummilli Lider Heydər Əliyevin ölkəmizdə mətbuatın inkişafı, söz azadlığının bərqərar olması istiqamətində atdığı mühüm addımlardan danışıb. O əlavə edib ki, xüsusən də 1990-1993-cü illərdə Ulu Öndərin Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə "Şərq qapısı" qəzeti və Naxçıvan televiziyasının yaratdıqları salnamələr onların arxivlərində qorunur. Bu dəyərli mənbələr bu gün üçün də böyük məxəzdir və Ümummilli Liderin şəxsiyyətini daha yaxından tanımaqda önəmli rol oynayır.

Tədbir müddətində Azərbaycan mətbuatının 150 illik yubileyi münasibətilə beynəlxalq media təmsilçilərinin təbrik videoları təqdim olunub. Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Fahrettin Altun, Anadolu Agentliyinin baş direktoru Serdar Karagöz, Özbəkistan Gənc Jurnalistlər Birliyinin sədri Şöhrət Arif, Avropa Xəbər Agentliyinin İtaliya nümayəndəsi Carlo Marino və Qazaxıstan televiziyasının Xəbərlər Departamentinin direktoru Beynequl Abauova Azərbaycan mediasını yubiley münasibətilə təbrik ediblər.

Konfrans çərçivəsində "Dezinformasiya və fake news-larla mübarizə" mövzusunda panel müzakirəsi keçirilib. MEDİA-nın Naxçıvan Regional İdarəsinin müdiri Vəfa İsgəndərovanın moderatorluğu ilə baş tutan paneldə Bakı Dövlət Universitetinin professoru Qulu Məhərrəmli, jurnalist Rüfət Həmzəyev, Mətbuat Şurası İdarə Heyətinin üzvü Elşad Eyvazlı və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Rəmzi İbrahimov fikirlərini bölüşüblər.



## Naxçıvanda "Göycə" festivalı keçirilib





Mayın 30-da Naxçıvan şəhərindəki "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Göycə" festivalı öz işinə başlayıb.

Festivalın açılış tədbirində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət rəsmiləri, "Qlobal İnformasiya Mühiti və Media Trendləri" konfransı – "MEDİAFEST-2025"in iştirakçıları, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin şagirdləri maraqlı kompozisiya ilə festival iştirakçılarını qarşılayıblar.

Naxçıvan şəhər 11 nömrəli uşaq bağçasının fidanları qonaqlara göycə təqdim ediblər.



Meydanda quraşdırılmış monitorda Ümummilli Lider Heydər Əliyevin Naxçıvan göycəsi ilə bağlı jurnalistlərlə səmimi söhbəti izlənilib.

Sonra səlahiyyətli nümayəndə və qonaqlar Naxçıvanqala ərazisində bəzənən rəngarəng stendlərlə tanış olublar. Muxtar respublikanın ayrı-ayrı bölgələrində fəaliyyət göstərən sahibkarlar və məhsul istehsalçıları tərəfindən təşkil olunan stendlərdə muxtar respublikanın hər bir bölgəsinə xas göycə növləri, onlardan hazırlanan müxtəlif məhsullar təqdim olunub. Həmçinin diyarımızın tarixi-mədəni irsi və turizm potensialı nümayiş etdirilib.



Festival iştirakçıları təsərrüfat və incəsənət adamları ilə söhbət ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü və Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən festival öz işini növbəti gün də davam edib.

## Şahtaxtı gömrük və Təzəkənd avtomobil yolları əsaslı təmir olunub



Kəngərli rayonundakı Şahtaxtı gömrük və Şərur rayonunun Təzəkənd avtomobil yolları əsaslı təmir olunub.

İyunun 3-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli yollarda aparılan əsaslı təmir işləri ilə tanış olub.

"Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin idarə heyətinin sədr müavini, sədr vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən Rövşən Sadıxov məlumat verib ki, təmir işləri zamanı 5,1 kilometrlik Şahtaxtı gömrük avtomobil yolunun alt təbəqəsi qum-çınqıl materialı verilməklə möhkəmləndirilib və avtomobillərin daha rahat hərəkəti üçün yol yatağı genişləndirilib. İki hərəkət zolağından ibarət yola ikiqat asfalt örtüyü verilib, hərəkətin təhlükəsizliyi təmin olunub.



Şərur rayonunun Təzəkənd avtomobil yolu ilə tanışlıq zamanı isə bildirilib ki, yolda əsaslı təmir işləri "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində aparılıb. Avtomobil yolunun 1,9 kilometrlik hissəsinə bir, 4,4 kilometrlik hissəsinə isə ikiqat asfalt örtüyü salınıb. Yağış və qrunt sularının kənarlaşdırılması üçün yol kənarlarına 700 m uzunluğunda beton su kanalı çəkilib, 38 metal boru su keçidi quraşdırılıb.

Avtomobil yolu ilə tanışlıqdan sonra kənd sakinləri ilə səmimi görüş olub. Sakinlər uzun zamandır, təmirə ehtiyac duyulan yollarda yaradılan müasir şəraitə görə dövlətimizə minnətdarlıq ediblər.



***

Həmin gün səlahiyyətli nümayəndə Fuad Nəcəfli ötən il əsaslı təmirdən sonra istifadəyə verilən Təzəkənd tam orta məktəbində yaradılan şərait və tədrisin gedişi ilə maraqlanıb. Məlumat verilib ki, 110 yerlik məktəb binasında tədris imkanları müasir tələblərə cavab verir. Məktəbin kollektivi yaradılan tədris şəraitinə görə minnətdarlıqlarını bildiriblər.





## Ali Məclisin yaz sessiyası başa çatıb

Mayın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə 2025-ci il yeddinci çağırış Ali Məclisin yaz sessiyasının sonuncu plenar iclası keçirilib.

İclasın gündəliyinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci ilin yaz sessiyası dövründə fəaliyyəti və cari məsələlərin müzakirəsi daxil edilib.

İclasda Ali Məclis Aparatının rəhbəri Ülvi Hüseynli çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyası dövründə fəaliyyəti ilə bağlı məlumat verib.

Gündəlikdə duran ikinci məsələ ilə bağlı deputatlardan Arzu Abdullayev, Emin Şıxəliyev, Rafiq Novruzov və Pərvin Nəcəfsoy çıxış ediblər.





Sonra Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov iclas iştirakçılarını və muxtar respublikanın bütün sakinlərini qarşıdan gələn Qurban bayramı, Azərbaycan xalqının Milli Qurtuluş Günü və Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibətilə təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

Ardınca Bəxtiyar Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il yaz sessiyasını bağlı elan edib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bununla da Ali Məclisin 2025-ci il yaz sessiyasının sonuncu plenar iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# MEDİAFEST | 150

Azərbaycan milli mətbuatının 150 illiyi

## Fahrettin Altun: *“Azərbaycan mətbuatının həqiqət uğrunda apardığı mübarizəyə verdiyi töhfədən böyük məmnunluq duyuram”*



“Azərbaycan mətbuatının 150 illik yubileyi münasibətilə qardaş Azərbaycan xalqını və media nümayəndələrini ürəkdən təbrik edirəm”. Bunu Naxçıvanda keçirilən “MEDİAFEST-2025”ə videomüraciətində Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Fahrettin Altun bildirib.

O deyib: “Azərbaycan mətbuatı 150 illik tarixi ilə yalnız xəbər çatdırmaqla kifayətlənməyib, eyni zamanda xalqın səsi, mədəni irsin daşıyıcısı və fikir azadlığının müdafiəçisi olmuşdur. Həqiqətin çatdırılmasını özünə borc bilən, ədalətli media mədəniyyətinin qorunmasına töhfə verən, etik dəyərlərə və jurnalistikanın prinsiplərinə sadiq qalan bütün mətbuat nümayəndələrini təbrik edirəm. Dezinformasiyanın ən yüksək həddə çatdığı bir dövrdə, dəqiq məlumatı ictimaiyyətə çatdırmaq məsuliyyəti ilə hərəkət edən Azərbaycan mətbuatının həqiqət uğrunda apardığı mübarizəyə verdiyi töhfədən böyük məmnunluq duyuram. Həsən bəy Zərdabinin 1875-ci ildə Azərbaycan dilində nəşr etdiyi “Əkinçi” qəzeti ilə başlanan Azərbaycan mətbuatının yolçuluğu bu gün də böyük uğurla davam edir”.

Fahrettin Altun, xüsusilə İkinci Qarabağ müharibəsi dövründə Azərbaycan mətbuatının ölkənin haqlı mövqeyini beynəlxalq ictimaiyyətə çatdırmaq və sistemli dezinformasiya cəhdlərinin qarşısını almaq uğrundakı fəaliyyətindən bəhs edərək deyib: “Siz haqlı mübarizənizi böyük əzmlə müdafiə edərkən, eyni zamanda həqiqətin də carçısı oldunuz. Beynəlxalq ictimaiyyətin yalan, uydurma məzmun və dezinformasiya ilə zəhərlənməsinin qarşısını aldınız”.

O həmçinin qeyd edib ki, Azərbaycan və Türkiyə arasında mətbuat sahəsindəki əməkdaşlıq, “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında” Anlaşma Memorandumu” ilə daha da gücləndi. Azərbaycan və Türkiyənin ortaq media platforması da kommunikasiya və media sahəsində əməkdaşlığı və Türk dünyası ilə münasibətlərin inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. İki ölkə arasındakı əlaqələr “Bir millət, iki dövlət” prinsipi ilə kommunikasiya sahəsindən enerjiyə, logistika sahəsindən müdafiə sənayesinə qədər hər sahədə özünü göstərir.

## Carlo Marino: *“Azərbaycan mətbuatı ötən müddətdə çətin, amma şərəfli yol keçib”*



***Bunu Naxçıvanda keçirilən “MEDİAFEST-2025” tədbirinə ünvanladığı təbrikində Avropa Xəbər Agentliyinin İtaliya nümayəndəsi Carlo Marino bildirib.***

***“Azərbaycan mətbuatının 150 illiyi münasibətilə bütün həmkarlarımı və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik etməkdən böyük məmnunluq duyuram. Bu əlamətdar tarix yalnız milli mətbuatın deyil, həm də xalqın düşüncə və ifadə azadlığının zəngin ənənələrə söykəndiyini göstərir. Azərbaycan mətbuatı ötən müddətdə çətin, amma şərəfli yol keçib, ictimai rəyin formalaşmasında, cəmiyyətin maarifləndirilməsində və dövlətçiliyin möhkəmləndirilməsində mühüm rol oynayıb. Zamanın çağırışlarına cavab verən, dəyişən informasiya mühitinə uğurla uyğunlaşan və peşəkar prinsiplərini qoruyub saxlayan Azərbaycan mətbuatı bu gün də cəmiyyətin düzgün məlumatlandırılmasına layiqli töhfələr verir”, – deyə o qeyd edib.***

## Anadolu Agentliyinin baş direktoru Serdar Karagöz: *“Qarabağ zəfərini də ayrıca bir kitab ilə bütün dünyaya çatdırdıq”*



***“Bir millət, iki dövlət – Türkiyə və Azərbaycan” olaraq hər zaman birlik və bərabərlik içərisində olduq. Bu gün Azərbaycan milli mətbuatı 150 yaşındadır. Anadolu Agentliyi olaraq türk xəbər agentlikləri birliyinin üzvü kimi qardaş agentlik olan AZƏRTAC-la əməkdaşlıq edərək fəaliyyətimizə davam edirik”, – deyə Naxçıvanda keçirilən “MEDİAFEST-2025” tədbirinə ünvanladığı videotəbrikdə Anadolu Agentliyinin baş direktoru Serdar Karagöz bildirib.***

***O həmçinin deyib: “Azərbaycanın möhtəşəm qələbəsini – Qarabağ zəfərini də ayrıca bir kitab ilə bütün dünyaya çatdırdıq. Bu kitab qardaş ölkənin haqlı mübarizəsinin və zəfərinin bütün dünyada eşidilməsinə öz töhfəsini verdi. Mən Anadolu Agentliyi adından Azərbaycan milli mətbuatının 150-ci ildönümünü bir daha ürəkdən təbrik edirəm”.***

## Şöhrət Arif: *“İnformasiya hücumları”nın yaşandığı indiki dövrdə qərəzsiz məlumatların yayılmasında Azərbaycan milli mətbuatının rolu böyükdür”*

“Azərbaycan milli mətbuatının 150 illiyinin qeyd edilməsi özbək jurnalistlərini də sevindirir. Biz yaxşı bilirik ki, milli mətbuat Azərbaycan tarixinin müxtəlif mərhələlərində mühüm rol oynamışdır”. Bunu Naxçıvanda keçirilən “MEDİAFEST-2025”ə ünvanladığı təbrikdə Özbəkistan Gənc Jurnalistlər Birliyinin sədri Şöhrət Arif bildirib.

O deyib: “Müstəqillik dövründə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə milli mətbuatın inkişafına şərait yaradılmışdır. Bu gün də Azərbaycanın müasir inkişaf mərhələsində milli mətbuat mühüm vəzifələr yerinə yetirir. Xüsusən “informasiya hücumları”nın yaşandığı indiki dövrdə qərəzsiz məlumatların yayılmasında, əhaliyə obyektiv məlumatların çatdırılmasında milli mətbuatın rolu böyükdür. Özbəkistan Jurnalistlər İttifaqı nəzdində fəaliyyət göstərən Gənc Jurnalistlər Birliyinin sədri kimi azərbaycanlı həmkarlarımızı və jurnalistləri milli mətbuatın 150 illik yubileyi münasibətilə təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayıram”.




## Qazaxıstan televiziyasının Xəbərlər Departamentinin direktoru Beynequl Abauova: *“İki ölkə arasındakı ümumi mədəniyyətə, mənəvi dəyərlərə və dərin tarixi köklərə əsaslanan dostluq əlaqələri böyük əhəmiyyət kəsb edir”*



***“Məlum olduğu kimi, qədim Naxçıvan şəhərində Azərbaycan mətbuatının 150 illiyi qeyd olunur. Hörmətli həmkarlarımı ürəkdən təbrik edir və bu əlamətdar “MEDİAFEST” tədbirinin keçirilməsində onlara uğurlar diləyirəm”, – deyə “MEDİAFEST-2025”ə ünvanladığı videotəbrikdə o bildirib.***

***Beynequl Abauova təbrikində qeyd edib: “İki ölkə arasındakı ümumi mədəniyyətə, mənəvi dəyərlərə və dərin tarixi köklərə əsaslanan dostluq əlaqələri böyük əhəmiyyət kəsb edir. Azərbaycan mediası ilə mütəmadi olaraq məlumat mübadiləsi həyata keçiririk. İnanıram ki, Azərbaycan mediası gələcəkdə də bütün dünyaya öz gücünü nümayiş etdirməyə davam edəcək. Sizə yaradıcılıq yüksəlişi və uğurlar arzu edirəm”.***

## Jurnalist Sara Əzimova: *“Arzu edirik ki, Azərbaycan mediasının səsi Zəngəzurdan gəlsin”*

Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə Prezident cənab İlham Əliyevin imzaladığı mühüm Sərəncam əsasında Naxçıvanda “Qlobal İnformasiya Mühiti və Media Trendləri” konfransı – “MEDİAFEST-2025” keçirilib. Tədbir Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü, Medianın İnkişafı Agentliyi, Mətbuat Şurası və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin orqanı olan “Şərq qapısı” qəzetinin birgə təşkilatçılığı ilə baş tutub.

Tədbirlə bağlı “Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova media nümayəndələrinə açıqlama verib:



“Bu tədbir bir daha göstərdi ki, 150 illik tarixə malik Azərbaycan mediası son beş ildə cənab Prezidentin rəhbərliyi ilə təkcə döyüş və diplomatiya meydanlarında deyil, informasiya cəbhəsində də öz sözünü deyib və qalibiyyətini təsdiqləyib. Cənab Prezidentin müəyyən etdiyi strateji yol xəritəsi – milli maraqların qorunduğu, informasiya suverenliyimizin təmin olunduğu, innovasiya və peşəkarlığın əsas götürüldüyü bir medianın formalaşdırılmasıdır. Bu xətt bizim üçün təkcə istiqamət deyil, həm də məsuliyyətdir. Çünki biz bu yolla gedərək yalnız bu günün deyil, gələcəyin mediasını formalaşdırırıq – daha güclü, daha dayanıqlı və milli maraqlara əsaslanan bir media sistemi”.

Sara Əzimova, həmçinin bu əlamətdar günə bağlı media nümayəndələrini təbrik edib: “Bu əlamətdar gün münasibətilə bütün həmkarlarımı, əslində isə cəmiyyətin bütün üzvlərini təbrik edirəm. Çünki hər kəs media oxuyur, izləyir, dəyər verir. Arzu edirəm ki, gün o gün olsun, Azərbaycan mediasının səsi Zəngəzurdan gəlsin!”

## “MEDİAFEST-2025” Azərbaycan mətbuatında

# Naxçıvanda media sammiti




Ötən həftəsonu Azərbaycan mediasının nəbzi Naxçıvanda döyünürdü desək, nə yanılarıq, nə də şişirtmiş olarıq. Məmləkətin nüfuzlu jurnalistləri, aparıcı KİV təmsilçiləri, bir sözlə, mediada sözün və sözünün sahibi olan hər kəs bu qədim yurdda idi…

Üçgünlük səfərin məqsədi “Qlobal İnformasiya Mühiti və Media Trendləri” konfransında – “MEDİAFEST-2025”də iştirak olsa da, əsas mahiyyəti daha əhatəli idi. 70-ə yaxın media nümayəndəsi burada bir araya gəlməklə Azərbaycan mətbuatının 150 illiyi ərəfəsində ilk böyük görüşlərini keçirdi, həm də yubiley tədbirlərinə Nuhun yurdundan başlamış oldu. İndi daha çox ehtiyac duyduğumuz həmkar kommunikasiyasını daim sığındığımız simvolika ilə birgə bir-birini tamamladı.

***Naxçıvanlılar dəyişikliklərdən razıdırmı?***

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Medianın İnkişafı Agentliyi, Mətbuat Şurası və “Şərq qapısı” qəzetinin birgə təşkilatçılığı ilə baş tutan səfərin əhəmiyyəti öncədən məlum idi. Uzun müddət coğrafi amillə yanaşı, həm də informativ məcrada Azərbaycanın əsas ərazisindən təcrid olunan bu qərb torpaqlarımızda baş verən proseslər, naxçıvanlıların yaşamı, problemləri barədə hansısa vasitəçi resurslarla deyil, elə yerində və birbaşa məlumatlanma imkanı media cameəsi üçün mühüm məqam oldu. Digər mühümlük göstəricisi isə 150 il ərzində Azərbaycan mediasına görkəmli və istedadlı jurnalistlər bəxş edən Naxçıvanın özündə KİV-in hazırkı durumu ilə tanışlıq idi.

“Ucqar” məfhumunun izahı, şübhəsiz ki, coğrafi təyinatlıdır. Amma, adətən, məcazi mənada elə işlədirik, geriliyi, ətaləti ifadə edirik. Naxçıvan coğrafi anlamda, əlbəttə ki, ucqardır, Azərbaycanın cənub-qərb sərhədlərinin keçdiyi son məkanımızdır. Lakin Naxçıvana, hətta coğrafi anlamda belə ucqar deməyə dilimiz gəlmir, bunun haqsızlıq, səhv olduğunu düşünürük.

Və bu təəssüratı hələ təyyarənin illüminatorundan Naxçıvan şəhərinə nəzər salarkən çoxları yaşadı və heyrətləndi. Hətta muxtar respublikaya 14-cü səfəri gerçəkləşdirən mənim üçün Naxçıvan 1 ay öncəki, 1 il əvvəlki Naxçıvan deyildi. Geniş küçələr, hər tərəfdə yaşıllıqlar, yüksək zövqlə və milli ornamentlərlə inşa olunan binalar, müasir sosial infrastrukturlar, ətrafın gözoxşayan təmizliyi, şəhərsalma qaydalarının məhz şəhərsalma standartlarına uyğun həyata keçirilməsi Naxçıvana ilk baxışdan valeh olmağı təmin edirdi. Ən əsası isə şəhərdə və sonradan olduğumuz muxtar respublikanın digər rayonlarında insanlar sözün yaxşı mənasında qaynayırdı. Uşaqlar, gənclər, ahıllar küçələrdə, parklarda sərbəst dolaşır, istirahət edirdilər. Yəni buranın “qapalı məkan – məhdudiyyətlər bölgəsi” imici tamamilə, bəli, tamamilə yox olub. Naxçıvanda gülərüzlərin sayı da çoxalıb…

Nuh Peyğəmbərin binə etdiyi bu ərazilər minilliklər boyu hərbi yürüşlərin məngənəsində qalıb, qan-qada, ixtilaf, böhran, soyqırımları görüb. Tariximizin gərdişi çox zaman elə bu məkanda gedən proseslərin fonunda dəyişib. Müasir Azərbaycanın ilk qığılcımları da bu torpaqlarda parlayıb. Adətən, gərginliyin, ziddiyyətlərin, çətin seçimlərin sınağında olan və bu sınaqlardan çıxmağa da həmişə özündə güc tapan Naxçıvan – naxçıvanlılar indi sakit, rahat həyatını yaşayır.

Bəs bu həyatın firavanlığı təmin olunurmu? Naxçıvanda yeni idarəçilik modeli effektivdirmi? İslahatlar necə gedir? Sakinlərin rəyi, münasibəti öyrənilirmi və onlardan nəticə çıxarılırmı? Suallarımız çox idi, onları cavablandıracaq yeganə şəxs olan Azərbaycan Respublikası Prezidentinin bölgədəki səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli həm rəsmi toplantıdakı çıxışında, həm də qeyri-rəsmi görüşümüzdə bu məsələlərə aydınlıq gətirdi.

Fuad Nəcəflinin əsas nailiyyət kimi səciyyələndirdiyi amil Naxçıvanda şəffaflığın, açıqlığın və hesabatlılığın, xərclərdə isə qənaət və səmərəliliyin təminidir. Bu da muxtar respublikaya ayrılan dotasiyanı azaldıb, nəticə etibarilə, ölkə büdcəsinə olan yükü dərəcədə yüngülləşdirib. Yerli gəlirlərdə ciddi artım müşahidə olunsa da, aqrar sektorun, xüsusən də suvarma infrastrukturunun yenilənməsinə böyük ehtiyac yaranıb. Ümumiyyətlə, yenilənmə, modernləşmə iqtisadiyyatın bütün sahələrində zərurətə çevrilib. Naxçıvanın sosial-iqtisadi inkişafına dair Prezident İlham Əliyevin imzaladığı Dövlət Proqramını islahatların yol xəritəsi sayan Fuad Nəcəfli görüləcək işlərin çox, gediləcək məsafənin uzun olduğunu bilsə də, qazanılacaq uğura çox əmindir.

Hər bir təşəbbüsün önündə düzgün hədəf, ardında isə gərgin zəhmət dayananda o şübhəsiz, uğurla nəticələnəcək. Bölgədə son illərdəki dəyişikliyi həmsöhbət olduğumuz sadə naxçıvanlılar da yüksək qiymətləndirir. Bu dəyişikliklər çoxsaylı problemləri həll etməklə bərabər, təbii olaraq, yeni problemlər də meydana çıxarıb. Ancaq ümid, əminlik və fədakarlıq həmişə olduğu kimi indi də zəhmətkeş naxçıvanlıların yeganə istinadıdır…

***104 yaşlı cavan... və uşaqların nəşr etdiyi qəzet***

Naxçıvana səfərimizin əsas məqsədinin “Qlobal İnformasiya Mühiti və Media Trendləri” konfransı – “MEDİAFEST-2025” olduğunu da unutmayaq. Tədbir isə, sözün həqiqi mənasında, festival ovqatında, böyük coşqu və yüksək təşkilatçılıqla hazırlanmışdı.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov konfransın, ümumilikdə, Azərbaycan mediası üçün mühüm praktik əhəmiyyət daşıyacağını söyləməklə tədbirin önəmini vurğuladı. Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid 150 illik tarixin keşməkeşli mərhələlərini vərəqlədi. Prezident Administrasiyasının sektor müdiri Kamran Həsənovun “Bu gün Azərbaycan mediası yalnız daxili auditoriyaya deyil, həm də beynəlxalq informasiya məkanında ölkəmizin maraqlarını müdafiə etmək vəzifəsi daşıyır. Bu, yeni nəsil jurnalistlərin hazırlanmasını, media savadlılığının artırılmasını və innovativ texnologiyaların mətbuatda tətbiqini zəruri edir” sözləri iştirakçıların böyük qismini təmsil edən naxçıvanlı gənc jurnalistlər üçün mühüm mesaj idi.

Gənc jurnalistlərdən söz düşmüşkən Naxçıvanda, hətta uşaq və yeniyetmə yaşlı jurnalistlər də var ki, çox nəfis, maraqlı bir qəzeti – “Məktəbli”ni nəşr edirlər. Həmçinin “Yeni fikir” qəzeti də Naxçıvan Dövlət Universitetinin tələbələri ilə yanaşı, muxtar respublikada qələmi yeni sınaqdan çıxardan onlarla gəncin seçimidir. Universitetin Jurnalistika ixtisasında tədrisin, yaradıcılıq potensialının, nəzəriyyə ilə təcrübənin qarşılıqlı vəhdətinin yüksək səviyyəsini Bakıdan gələn və burada ustad dərsləri keçən tanınmış jurnalistlər etiraf edirlər. Yeri gəlmişkən, ölkədə ən böyük kampusa malik olan NDU həm də ən çox xarici vətəndaşın təhsil aldığı universitetdir. Burada qəbulda keçid balları paytaxtın dövlət universitetlərinin çoxundan daha artıqdır, eləcə də beynəlxalq reytinqlərdə də NDU Bakının əli məktəblərinin əksəriyyətini geridə qoyur. Əlbəttə ki, belə bir universitetdə jurnalist hazırlığının yüksək səviyyəsi də təbii sayılmalıdır.

Muxtar respublikada jurnalistlərin mütləq əksəriyyəti məhz gənclərdir. Bu da, yəqin, elə simvolik ənənədən qaynaqlanır: Naxçıvanda mətbuatın təməli 104 il öncə məhz “Cavanlar həyatı” adlanan qəzetlə qoyulub. Bu bayrağı indi peşəsinə məsuliyyətlə, qələminə sədaqətlə daşıyan “Şərq qapısı” qəzeti, Naxçıvan televiziyası və radiosu, “Nuhçıxan” portalı və bir neçə digər KİV əsl cavanlıq şövqü ilə Naxçıvan salnaməsini yaradırlar...

Çox qəzetin tarixdə izi qalır, 104 yaşlı “Şərq qapısı” isə elə müasir dövr tarixinin özüdür. Bu gün Azərbaycanın bütün bölgələrində fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində, muzeylərində “Şərq qapısı” qəzetinin hansısa səhifəsinin fotonüsxəsini görə bilərik. Yaxud Ümummilli Lider irsini araşdıranlar, Azərbaycanın qurtuluş missiyasının başlanğıc mərhələsi olan Naxçıvan dövrünü öyrənənlər əsas istinad mənbəyi kimi “Şərq qapısı”nın qapısını döyür. Ulu Öndər bu qəzetə verdiyi yüksək dəyəri başqa heç bir KİV barədə söyləməyib: ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm...”***

Qəzetin keçmişi nə qədər əhəmiyyətlidirsə, mövcud fəaliyyəti də bir o qədər peşəkar və gərəklidir. “Şərq qapısı”nda gənclik ruhunu, gənclərin iştirakını yaradıcılığın hər mərhələsində aydın müşahidə edirik. NDU-nun Jurnalistika ixtisasında təhsil alan tələbələr qəzetdə davamlı təcrübə keçir, peşənin incəliklərini öyrənirlər və sonra işə götürülmək imkanı əldə edirlər. Qəzetdə gənc kadrlar qocaman jurnalistlərlə çiyin-çiyinə çalışır ki, bu da jurnalistikada nəsillərarası əlaqə yaratmaqla təcrübə mübadiləsinə, jurnalist potensialının gəncləşməsinə xidmət edir. Ancaq burada yalnız gənclər öyrənmir, daha çox yaşlılar gənclərdən yeni media çağırışlarını, müasir yanaşmaları əxz edirlər.

“Şərq qapısı” region qəzeti olsa da, son dövrlərdə nəfis tərtibatı, maraqlı reportajları, aktual mövzu seçimi, həyatın bütün sahələrini peşəkarlıqla işıqlandırması, böyük oxucu auditoriyası əldə etməsi baxımından, əslində, ümummilli nəşrdir. Hər bir KİV üçün indi vacib sayılan sosial şəbəkələrdə fəallıq göstəriciləri isə bu nəşrdə ölkənin əsas qəzetləri ilə müqayisədə qat-qat artıqdır.

***Nəqşicahandan cahana yayılan operativ, obyektiv, peşəkar səda***

“MEDİAFEST-2025”in ən əlamətdar hadisələrindən biri Naxçıvan televiziyasının (NTV) “Azerspace-1” peykində yayıma başlaması oldu. Bakıdan gedən həmkarlarımızın NTV fəaliyyətini birbaşa ofislərindən, yaxud da televiziya vasitəsilə izləmək imkanı geniş idi. Hər kəsin yüksək razılığını “Xəzər Media Mərkəzi”nin rəhbəri Murad Dadaşovun “Naxçıvan televiziyası canlı orqanizmdir, peşəkar kollektivdir” fikirləri ilə ümumiləşdirmək olar. Çoxumuz isə bu telekanalın fəaliyyətini paytaxtda yayımlanan ümummilli kanalların bəzilərindən daha yüksək, daha maraqlı, daha istedadlı saydıq.

Tək ötən il NTV 44 film, 1000-ə yaxın veriliş, 6000-dən artıq xəbər süjeti hazırlayıb. Əlavə olaraq, telekanalın Bakı bürosu 70-ə yaxın film, veriliş hazırlayıb. Rus və ingilis dillərində xəbər buraxılışları NTV-nin çoxsaylı yeniliklərindən bir qismidir. Ulu Öndərin 100 illik yubileyi ilə bağlı telekanalın hazırladığı silsilə filmlər isə, ümumiyyətlə, bu mövzuda ən yaxşılar sırasındadır. Tamaşaçılara 1990-1993-cü illərdəki hadisələrin canlı şahidlərinin təqdimatında Heydər Əliyevlə bağlı indiyədək məlum olmayan xatirələr, görüntülər, yeni faktlar təqdim edilib.

Naxçıvan televiziyası və “Şərq qapısı”nın bir ortaq nöqtəsi də Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işlərini davamlı işıqlandırmaları, vətənpərvərlik mövzularına geniş yer ayırmalarıdır. Həmçinin bu iki KİV-in efirində, səhifələrində Astaradan Qusara, Gədəbəydən Şamaxıyadək Azərbaycanın bütün bölgələrini əhatə edən reportajları mütəmadi görmək olar. Bütöv Azərbaycanın reallıqları, Azərbaycan insanının yaşamı “Şərq qapısı” və NTV-də aydın, əhatəli və səmimi təəssübkeşliklə təcəssüm edir. Bu fədakar həmkarlarımız Naxçıvanla yanaşı, əslində isə ondan daha çox məhz bütöv Azərbaycanın salnaməçiləri olduqlarını yüksək məsuliyyətlə qəbul edir, böyük sevgi ilə icra edirlər.

Paytaxtda Naxçıvanla bağlı dəqiq, qərəzsiz, opeartiv informasiya əldə etmək üçün məhz “Şərq qapısı”nın bir saytına, Naxçıvan televiziyasının “Youtube” yayımına (artıq birbaşa peyklə izləmək imkanı da yarandı) və “Nuhçıxan” portalına müraciət edilir. Qədim yurdun bu müasir media resursları Naxçıvanın adına, sanbalına, potensialına layiq istedadlı, peşəkar fəaliyyətlə milli mətbuat irsimizə əvəzsiz töhfələr verirlər.

Muxtar respublikada təşkil edilən “MEDİAFEST-2025”in mühüm özəlliklərindən biri də paytaxt jurnalistlərinin Naxçıvan mediası haqqında daha dolğun məlumat ala bilməsi oldu. Eyni zamanda Naxçıvanda və Bakıda fəaliyyət göstərən həmkarların yeni əməkdaşlıqları, daha sıx kommunikasiyaları formalaşdı.

***Naxçıvanda media sammiti keçirtdik, həm öyrətdik, daha çox isə öyrəndik…***

***Tarixboyu böyük sınaqlardan layaqətlə keçib indi yeni dəyişiklikləri ümidlə yaşayan Naxçıvan, unutmayaq ki, düşmənə gözdağıdır…***

***Naxçıvan tezliklə keçəcəyimiz Zəngəzur dəhlizidir…***

***Naxçıvan Ağdamdır, Kəlbəcərdir, Xocalıdır…***

***Naxçıvan Suqovuşandan Azıx mağarasına, Şuşadan Ağdərəyədək tökülən müqəddəs şəhid qanıdır…***

***Naxçıvan Xankəndidə dalğalanan bayraqdır…***

***Naxçıvan Vətəndir…***

**İxtiyar HÜSEYNLİ**
*Əməkdar jurnalist*

# MEDİAFEST | 150

Azərbaycan milli mətbuatının 150 illiyi

## Naxçıvan mediası qədim tarixə, zəngin ənənələrə söykənən informasiya dünyamızın parlaq simasıdır



Azərbaycan Mətbuat Şurasının icraçı katibinin müavini Fəridə Ağazadə: "Bu gün Azərbaycanın qədim diyarı olan Naxçıvanda mötəbər bir tədbirə şahidlik edirik. Bildiyiniz kimi, bu il Azərbaycan mətbuatının 150 illik yubileyidir və bu yubileyin Naxçıvanda keçirilməsi, doğrudan da, bizim üçün böyük qürurdur, şərəfdir. Naxçıvan mediası qədim tarixə, zəngin ənənələrə və böyük, güclü dəyərlərə söykənən informasiya dünyamızın parlaq simasıdır. Bu mənada, mən Naxçıvan mediasında olan bütün həmkarlarımızı ürəkdən təbrik edir və bu mötəbər tədbirə ev sahibliyi etdiyi üçün əməyi keçən hər kəsə təşəkkürümü bildirirəm. Naxçıvanda bu tədbirin keçirilməsi ayrıca dəyərlidir, gözəldir, ona görə ki, Naxçıvan mediası çox böyük, zəngin tarixə malikdir. Həm də eyni zamanda Naxçıvan mediası Azərbaycan mediasının ayrılmaz parçasıdır. Biz fəxr edirik ki, həmkarlarımızla bərabər bu gün Azərbaycan mətbuatının 150 illiyini məhz Naxçıvanda böyük təntənə ilə qeyd edirik. Eyni zamanda "Göycə" festivalındayıq. Tədbirdən sonra bura gəlmişik, bu festival bizim üçün çox maraqlıdır. Burada insanlar bir-biri ilə dostluq qururlar, eyni zamanda Naxçıvanın qədim ənənələri, mədəniyyəti ilə tanış olurlar. Həmçinin burada dəyərli sənətkarlarımızın əl işləri ilə tanış oluruq. Biz bu festivaldan böyük sevinc və qürur hissi ilə ayrılacağıq".

## Naxçıvanda həyatın canlanmasının daha bir göstəricisi də media festivalıdır



Bu sözləri Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, siyasi şərhçi, Bayraktar medianın baş redaktoru Azər Həsrət deyib.

"Media festivalı çərçivəsində Naxçıvanda olmaqdan çox sevincliyik. Çox möhtəşəm bir qarşılama, möhtəşəm bir tədbir müşahidə etdik. Hələ tədbirlərimiz davam edir. Gəlişimiz "Göycə" festivalına təsadüf etdi. Təbii ki, haqqında eşitmişdik, oxumuşduq, amma gəlib burada bu göycələri dadmamışdıq.

Naxçıvana bu, ikinci gəlişimdir. Fuad müəllimlə görüşdə də onu qeyd etdim ki, ilk dəfə gələndə burada bir süstlük, susqunluq var idi. Amma aradan il yarım keçməsinə baxmayaraq, Naxçıvanda qaynarlıq var. Həsən bəy Zərdabi səhnəsinə çox qəhərləndim. Bilirsiniz niyə? Çünki biz də elə Həsən bəy Zərdabi kimi millətimizin maariflənməsi üçün çalışan insanlarıq. Əlbəttə, Həsən bəy Zərdabinin dönəmi çox çətin dönəm idi. O bizim kimi rahat şəraitdə işləmirdi, bu cür imkanlar da yox idi. Onun başladığı bu müqəddəs işi layiqincə davam etdirmək bizim həyat amalımız olmalıdır. Bu baxımdan keçirilən tədbir çox dəyərlidir. Çox gözəl çıxışlar dinlədik. Naxçıvanda həyatın yenidən canlanmasının daha bir göstəricisi də bugünkü media festivalıdır. Belə yüksək səviyyədə təşkilatçılıq üçün əməyi keçən hər kəsə təşəkkür edirəm".

## Hesab edirəm ki, Naxçıvanda Azərbaycanın media sammiti keçirildi



"Bu mənim Naxçıvana 14-cü səfərimdir. Hər səfərimdə Naxçıvanın daha da gözəlləşdiyinin, inkişafının daha da sürətləndiyinin şahidi oluram. Bütün küçələrdə avtomobillərin sıx şütüməsi ilə yanaşı, insanların da böyük bir sevinc içərisində rahat istirahət ovqatında gəzməsini muxtar respublikadakı son illərdəki dəyişikliyin müsbət təzahürü kimi qiymətləndirirəm".

Bu sözləri "Şərq qapısı"na açıqlamasında Azərbaycan Respublikasının Əməkdar jurnalisti İxtiyar Hüseynli deyib.

"Naxçıvanda keçirilən "MEDİAFEST-2025" yalnız adi bir tədbir deyildi. Bunu, ümumiyyətlə, Azərbaycanda bütün media ictimaiyyətini birləşdirən bir sammit kimi qəbul edirəm və hesab edirəm ki, Naxçıvanda Azərbaycanın media sammiti keçirildi. Qeyd etmək olar ki, bu media sammitinin bir neçə mühüm tərəfi var. Birincisi, 150 illiklə bağlı Azərbaycanın media ictimaiyyəti – Bakıdan gələnlər Naxçıvandakı islahatları aydın nəzərlə gördülər. Dolğun təsəvvürləri formalaşdı və eyni zamanda Naxçıvan mediası haqqında daha dolğun məlumat ala bildilər. Eyni zamanda Naxçıvandakı media təmsilçiləri də Bakıdan gələn media təmsilçiləri ilə kommunikasiyaları sıxlaşdırdılar. Bu, çox vacibdir. Mən Azərbaycan mediasında Naxçıvan mediasının rolunu həmişə yüksək qiymətləndirmişəm. Çünki mən hər həftə elektron variantda "Şərq qapısı"nı oxuyuram. Bəlkə də, Bakıda ən sıx izləyicilərinizdən biri elə mənəm".

"Naxçıvan, təəssüf ki, blokada şəraitində yaşayıb və son dövrlərdə burada informasiya blokadası var idi. Naxçıvanla bağlı informasiya blokadasını hesab edirəm ki dağıdan, puç edən iki amil var – "Şərq qapısı" qəzeti və Naxçıvan televiziyası. Mən bunu tam məsuliyyətlə deyirəm və Naxçıvanda çox istəyirik, hər kəs bilsin ki, Bakıdan baxanda Naxçıvandakı islahatları, buradakı sürətli inkişafı obyektiv, düzgün, dəqiq, ətraflı məhz "Şərq qapısı"ndan oxuyur, Naxçıvan televiziyasının internet saytından görürük. "Şərq qapısı" hər zaman Naxçıvan tarixində mühüm rol oynayıb və bu gün də Naxçıvanın inkişaf tarixində mühüm rol oynamaqdadır. Bakıda həm "Şərq qapısı"nı, həm də Naxçıvanı sevənlər sizləri maraqla izləyir. Siz Naxçıvan haqqındakı xəbərləri Naxçıvan televiziyası ilə bərabər çox obyektiv, müfəssəl, ən əsası, peşəkar səviyyədə qiymətləndirirsiniz. İki media subyektinin timsalında onu demək istəyirəm ki, Azərbaycanın media ənənələrini yaşatmaqla yanaşı, həm də qlobal media trendlərinə çox peşəkar uyğunlaşırsınız. Sizlərin hər birinin fəaliyyətində dövlətçilik xətti də, vətənpərvərlik xətti də var.

Bir şeyi təqdir edirəm və həmişə dostlarıma deyirəm ki, "Şərq qapısı" və Naxçıvan televiziyasının fəaliyyətlərinin yarısı Naxçıvana, yarısı Qarabağa, yarısı Zəngəzura aiddir. Prezidentin izi ilə, yaxud digər rubrikalar var. Biz onu izləyir və qürur duyuruq ki, siz artıq bölgə qəzeti, televiziyası deyilsiniz. Siz ümummilli qəzet və ümummilli televiziyasınız", – deyə İxtiyar Hüseynli vurğulayıb.

## Naxçıvanda media festivalının keçirilməsi tarixi bir addımdır



Oxu.Az saytının əməkdaşı Əzizə İsmayılova: "Naxçıvanda media festivalının keçirilməsi tarixi bir addımdır. Naxçıvandakı həmkarlarla görüşmək, bir araya toplaşmaq, onlarla həmsöhbət olmaq, fikir paylaşmaq çox gözəl bir hissdir. Bu tarixin, üstəlik, "Göycə" festivalına da təsadüf etməsi bizim üçün ikiqat bayramdır. Biz göycənin həmişə adını eşidirdik, indi isə dadını bildik. Burada göycədən hazırlanan müxtəlif nemətləri görürük. Çox gözəldir. Arzu edirəm ki, Naxçıvan torpağında həmişə bu cür ab-havalı tədbirlər keçirilsin və biz də böyük məmnuniyyət və sevgi ilə iştirak edək".













## Mirşahin Ağayev və Murad Dadaşov Naxçıvanda gənc jurnalistlərlə görüşüblər

*"MEDİAFEST-2025" çərçivəsində Naxçıvanda tanınmış media simaları – "Real Təhlil və İnformasiya Mərkəzi"nin baş direktoru Mirşahin Ağayev və "Xəzər Media Mərkəzi"nin baş direktoru Murad Dadaşov gənc jurnalistlərlə görüş keçiriblər.*

*Ustad dərsi formatında baş tutan görüş Naxçıvan şəhərindəki "Saat Meydanı"nda təşkil olunub. Tədbir zamanı hər iki media nümayəndəsi öz təcrübələrini bölüşüb, jurnalistikanın və televiziya sahəsinin dinamik inkişafı, medianın cəmiyyətə təsiri və informasiya istehsalında məsuliyyət məsələlərinə toxunub.*

*Mirşahin Ağayev çıxışında Azərbaycan jurnalistikasının keçdiyi inkişaf yolunu xatırladaraq müstəqil və obyektiv medianın formalaşmasında yaranan çətinliklərdən, eyni zamanda əldə olunan uğurlardan danışıb. O, gənc jurnalistlərə peşəyə sədaqətli olmağı, informasiyanın dəqiqliyinə önəm verməyi tövsiyə edib.*

*Murad Dadaşov isə media və əyləncə sahəsindəki təcrübəsini paylaşaraq müasir dövrdə tamaşaçı auditoriyasını anlamağın, kontent yaradarkən etik prinsiplərə sadiq qalmağın və yaradıcı yanaşmanın əhəmiyyətini vurğulayıb.*

*Gənc jurnalistlər və tələbələrin motivasiyaedici görüş kimi dəyərləndirdikləri ustad dərsi interaktiv şəkildə keçib, iştirakçılar öz suallarını ünvanlayaraq maraqlandıqları mövzularla bağlı ətraflı cavablar alıblar.*







## "MEDİAFEST-2025" çərçivəsində media tədqiqatçıları tələbələrlə görüşüb



"MEDİAFEST-2025" çərçivəsində mayın 31-də Naxçıvan Dövlət Universitetində Bakı Dövlət Universitetinin professoru Qulu Məhərrəmli və Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu tələbələrlə görüşüblər.

Görüşdə onlar jurnalistika sahəsindəki akademik və praktik təcrübələrini tələbələrlə bölüşüblər. Professor Qulu Məhərrəmli müasir dövrdə jurnalistin ictimai məsuliyyətini və informasiyanın dəqiqliyinin vacibliyini vurğulayaraq jurnalistikada etik qaydalara əməl etməyin önəmini diqqətə çatdırıb. O həmçinin tələbələrə media dünyasında peşəkar olaraq inkişaf etmələri üçün akademik yanaşmalarını doğru formalaşdırmağı tövsiyə edib.

Vüqar Zifəroğlu isə xəbər istehsalının texniki və redaksiya tərəflərinə dair detallı analizlər apararaq tələbələri peşəkar jurnalistikanın dəqiq və elmi yanaşmalarını mənimsəməyə çağırıb. Onun sözlərinə görə, jurnalistikanın akademik tərəfi yalnız gündəlik fəaliyyətlə məhdudlaşmamalıdır; hər bir jurnalist elmi biliklərini də artırmalıdır.

Görüşlər diskussiya şəraitində, sual-cavab şəklində keçib. Bu görüşlər gənc jurnalistlər üçün təcrübə mübadiləsi olub.

Qeyd edək ki, "MEDİAFEST-2025" Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən keçirilib.

## Azərbaycan milli mətbuatının 150 illiyi ilə əlaqədar tədbirlərimizə Naxçıvanda start verildi




"Bu festivalda mətbuatımızın zəngin tarixinin əks olunması ilə yanaşı, bunun realizə bir formada təqdimatı çox xoş bir təəssürat yaratdı. Buna görə səlahiyyətli nümayəndəliyə və "Şərq qapısı" qəzetinə öz təşəkkürümü bildirirəm".

Bu sözləri Naxçıvanda keçirilən "Qlobal İnformasiya Mühiti və Media Trendləri" konfransı – "MEDİAFEST-2025"də jurnalistlərə açıqlamasında "Report" İnformasiya Agentliyinin direktoru Fuad Hüseynəliyev deyib.

O qeyd edib ki, Azərbaycan milli mətbuatının 150 illiyi ilə əlaqədar tədbirlərə Naxçıvanda start verildi: "Tədbir olduqca çox yüksək səviyyədə təşkil olunmuşdu. Digər tərəfdən, Naxçıvan hər zaman Azərbaycan mətbuatında, Azərbaycan ədəbiyyatında xüsusi bir rol oynayıb. Bu tədbirə məhz Naxçıvanda start verilməsi rəmzi məna daşıyır. Tədbir yüksək səviyyədə təşkil olunmuşdu. Aktual məsələlər barədə panel müzakirələr oldu. İstər Fuad müəllimin, istərsə də Əhməd İsmayılov, Rəşad Məcid və Kamran Həsənovun çıxışlarında biz dəyərli fikirlər dinlədik. Düşünürəm ki, növbəti illərdə Azərbaycan mətbuatının daha da inkişaf etməsi üçün yeni texniki vasitələri, çağırışları var. Azərbaycan mətbuatı özünü 44 günlük Vətən müharibəsi zamanı təsdiqlədi. Bütün mətbuatın fəaliyyəti göstərdi ki, biz istənilən anda istənilən düşmənlə mübarizə apararaq qalib çıxa bilərik. Gələcəkdə də biz bütün ərazilərimizdə, Qarabağda inkişaf yolumuzu, tikinti-quruculuq işlərini geniş işıqlandıracağıq və əlbəttə ki, bu nüansda Zəngəzur dəhlizindən də yan keçməməliyik. Zəngəzur dəhlizinin açılması və oradan Naxçıvan vasitəsilə yüklərin Azərbaycandan dünyaya, Avropaya çatdırılmasını biz görəcəyik. İlk olaraq düşünürəm ki, bunu işıqlandıran məhz Naxçıvan mətbuatı olacaq. Sizə də bu yolda uğurlar arzulayıram.

İnanıram ki, biz əl-ələ verib ölkəmizin rifahını və gələcək inkişafını dünyaya ən gözəl şəkildə təqdim edə biləcəyik".

## Naxçıvanla bağlı təəssüratlar xatirələrdə gözəl günlər kimi yaşayacaq



"Asan Radio" və "Asan TV"nin direktoru, Əməkdar jurnalist, aparıcı Emin Musavi: "Biz Naxçıvana "MEDİAFEST"ə gəldiyimiz üçün çox sevincliyik. Həm ənənəvi mediadan, həm də yeni rəqəmsal mediadan olan aparıcı jurnalistlərin burada olması böyük hadisədir və rəmzi xarakter daşıyır. Bu festival imic baxımından da çox önəmlidir. Bizim üçün burada yaradılan şərait və qonaqpərvərliyiniz üçün ayrıca təşəkkür edirəm. Fürsət yaratdınız ki, biz yenidən Naxçıvanı görək. Bəlkə də, aramızda ilk dəfə Naxçıvana gələn jurnalistlər var idi. Bu bizim üçün yaxşı fürsət idi ki, həmkarlarımızla belə gözəl torpaqda, səviyyəli bir tədbirdə bir yerdə olduq, ünsiyyət qurduq, indi isə müqəddəs bir yerdəyik – Əshabi-kəhfdəyik. Təəssüratlar möhtəşəmdir və xatirələrdə də gözəl günlər kimi daim yaşayacaq".

## Media nümayəndələri olaraq bir daha əmin olduq ki, Naxçıvanda mətbuata böyük dəyər verilir



"Trend" beynəlxalq informasiya agentliyinin direktor müavini, Əməkdar jurnalist Sahil Kərimli: "Azərbaycan mətbuatının 150 illiyi ilə bağlı Azərbaycan Prezidenti cənab İlham Əliyevin verdiyi Sərəncam çərçivəsində Naxçıvanda keçirilən bu tədbir xüsusi əhəmiyyət daşıyır.

Azərbaycanın qədim bölgələrindən biri olan Naxçıvan şəhərində mətbuatın 150 illiyi ilə bağlı keçirilən bu tədbir çox böyük və əhəmiyyətli bir tədbir oldu. Media nümayəndələri olaraq hər birimiz belə bir tədbirin Naxçıvanda keçirilməsi ilə bağlı qürur hissi duyuruq. Tədbirin keçirilməsində əməyi olan hər kəsə öz dərin təşəkkürümü bildirirəm. Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə media nümayəndələrinin görüşü oldu. Bu görüşdə Fuad müəllim media ilə əlaqələrə böyük önəm verdiyini bir daha vurğuladı və biz media nümayəndələri olaraq bir daha əmin olduq ki Naxçıvanda mətbuata çox böyük dəyər verilir. Hazırda Naxçıvanın simvollarından olan "Göycə" festivalına qatılmışıq. Bu da bizim üçün çox maraqlı bir tədbir idi. Bakıdan gələn media nümayəndələri Azərbaycan mətbuatının aparıcı simaları tanınmış şəxslər media qurumlarının rəhbərləri də inanıram ki, mənim kimi bu tədbirlərdən çox razı qalıblar".

## Naxçıvanın Azərbaycanın maarifçi fikrində həmişə xüsusi yeri olub



"Azərbaycan mətbuatının 150 illiyinə həsr olunmuş tədbirlər silsiləsinin Naxçıvandan başlaması çox xoş sürpriz oldu. Qeyd edim ki, bu tədbirin gözlədiyimizdən daha xoş, maraqlı və mənalı keçməsi ikiqat xoş oldu. Çünki bu, Naxçıvanda gedən proseslərdə özünü əks etdirir".

Bu sözləri "Şərq qapısı"na müsahibəsində AzVision.az saytının baş redaktoru, jurnalist Vüsal Məmmədov söyləyib.

"Bu səviyyədə media tədbiri keçirmək üçün istər-istəməz fərqli düşüncə tərzi, proseslərə sağlam, savadlı bir baxış tərzi lazımdır. Görünür ki, bunlar Naxçıvana gəlib və üstəlik, bunu xüsusilə sevinclə qeyd edirəm ki, burada yerli həmkarlarla ünsiyyətdə mən Naxçıvan mediasının xeyli inkişaf etdiyinin şahidi oldum. İstər jurnalistlər fərdi olaraq inkişaf edib, istərsə də struktur olaraq xeyli inkişaf ediblər.

Naxçıvan televiziyasının bu günlərdə peyk yayımına çıxmasının özü də bunun təsdiqi idi. Azərbaycan mətbuatının, demək olar ki, beyni üç gün ərzində, sözün həqiqi mənasında, Naxçıvanda düşündü və ürəyi burada döyündü. Çünki bütün aparıcı jurnalistlər, media rəhbərləri, söz məkanında çəkisi olan jurnalistlərin çoxu buraya toplaşmışdı. Hər kəsin dəvəti qəbul edib həvəslə buraya gəlməsi göstərir ki, onlar da bu proseslərin fərqindədirlər.

Ümumiyyətlə, Naxçıvanın Azərbaycanın maarifçi fikrində həmişə xüsusi yeri olub. Naxçıvanda yetişən insanlar həmişə maarifləndirmənin önündə gediblər. Bu tarixən də belə olub, bu gün də Naxçıvan həmin rolunu oynamaqdadır. Görünür ki, Naxçıvan ilk dəfə olaraq bu tədbiri keçirməklə özünün missiyasını həyata keçirmiş oldu. Mən inanıram ki, Naxçıvanda medianın inkişafı davam edəcək və Naxçıvanın, bütövlükdə, ölkə mediasında tutduğu yeri də yüksəldikcə biz bunu sevinclə izləyəcəyik və bu prosesdə iştirak etməkdən də hər zaman məmnun olacağıq", – deyə Vüsal Məmmədov əlavə edib.

## Bu tədbir Azərbaycan milli mətbuatının 150 illiyi ilə bağlı görüləcək böyük bir işin tərkib hissəsidir



Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, "Yeni Çağ" Media Qrupun baş direktoru Aqil Ələsgər: "Bu tədbir Azərbaycan milli mətbuatının 150 illiyi ilə bağlı görüləcək böyük bir işin tərkib hissəsidir.

Hesab edirəm ki, belə tədbirlər jurnalistlər arasında ciddi koordinasiya bağlarının güclənməsinə, əlaqələrin inkişafına xidmət edir. Eyni zamanda bu kimi tədbirlər həmin bölgənin turizm imkanları, təbiəti, tarixi ilə bağlı maarifləndirmə işlərinin aparılmasında ciddi rol oynayır. Bugünkü tədbir çox maraqlı, hazırlanan videoçarxlar mənalı bir ismarış idi. Hesab edirəm ki, bu tədbir Azərbaycan milli mətbuatının 150 illiyi ilə bağlı görüləcək böyük bir işin tərkib hissəsidir. Bu baxımdan belə möhtəşəm tədbirin təşkilatçılarını təbrik edirəm. Çox ciddi, iddialı bir iş ortaya qoyulub. Arzu edirik, belə tədbirlər davamlı olsun".



## "MEDİAFEST-2025" Azərbaycan mətbuatında

# 20 il yaşayan 14 gün, Zərdabinin zühuru və Çuxur göycəsi...

Təyyarədən enəndə burnuma tanış hava dəydi – bir az toz, bir az yay, bir az da xatirə qoxurdu.

Naxçıvana düz 20 il əvvəl getmişdim, yanvar ayında. Heç vaxt görmədiyim sərt hava, "soyuğun iliyə işləməsi" ifadəsiylə real tanışlıq. Müstəqillikdən sonra ilk dəfə idi ki, tələbələri təcrübə üçün Bakıdan kənara göndərirdilər. Məni də 14 nəfərlik qrupla ən ucqara – bu "kiçik torpağ"a yönəltmişdilər. 5 və 3 nömrəli şəhər məktəblərində keçdiyimiz dərslər, bir-birindən istedadlı uşaqlar, zəhmətkeş, çox vaxt bazar günləri də dərs keçməyə məcbur edilən müəllimlər, daşınan qaz sobasıyla isidilən sinif otaqları, mehribanlığı, həddən artıq qayğıkeşliyi ilə adamı utandıran adamlar, dərsdən sonra balaca otelin bapbalaca otaqlarında qurduğumuz əylәncə… Tələbə yoldaşlığının sevgiyə çevrildiyi 14 günlük yekə bir ömür.

Onda tanımadığım bir yerə əlimdə dərs planı, çiynimdə ağır çanta, içimdə qarışıq duyğularla getmişdim, bu dəfə isə missiyam tamam başqa idi. Soyuğu isti, narahatlığı həzin bir sakitlik, az qala gözləri də örtən şərfləri qalstuk, "Qaz-24" avtomobillərini "Toyoto Avalon" əvəzləmişdi.

Mayın 30-da Naxçıvana "MEDİAFEST-2025" adı altında keçirilən "Qlobal İnformasiya Mühiti və Media Trendləri" konfransında iştirak üçün gəlmişdim. Rəsmi adı belə idi. Amma bu tədbir mənim üçün daha çox şey ifadə edirdi. O vaxt soyuq sinif otaqlarında qələm tutan əllər bu dəfə stendlərdə mikrofon tuturdu; o vaxt şagirdlərin baxışlarında gördüyüm parıltı, bu dəfə bir şəhərin informasiya ritmində görünürdü.

### *Keçmişlə bu günün sərgisi*

Heydər Əliyev Sarayının foyesində qurulan sərgi stendləri ilk baxışda adi görünə bilərdi. Amma bir az yaxınlaşanda hiss olunurdu ki, burada nümayiş olunanlar təkcə sənəd və şəkillər deyil, bunlar bir bölgənin informasiya yaddaşıdır.

"Şərq qapısı"nın arxiv buraxılışları, Naxçıvan Dövlət Universiteti tələbələrinin işləri, "Məktəbli" qəzetinin köhnə nüsxələri… Hər biri öz hekayəsini danışırdı.

### *Bir yayım – bir dönüş nöqtəsi*

Naxçıvan televiziyasının "Azerspace-1" peyki üzərindən yayıma başlaması tədbirin simvolik məqamlarından biri oldu. Bu hadisəni təkcə texniki bir nailiyyət kimi qəbul etmirik – bu, informasiya blokadasından çıxışın təntənəsi idi.

İllərlə təkcə lokal resurslara bağlı olan bu bölgə indi ümummilli informasiya axınında görünəcək, eşidiləcək və iştirak edəcək…





Konfransın özü çox yaxşı qurulmuşdu. Açılışında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, sonra Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin media ilə iş sektorunun müdiri Kamran Həsənov, Mətbuat Şurasının sədri Rəşad Məcid çıxış etdilər, mətbuatımızın keçdiyi yoldan, qarşıya qoyulan məqsədlərdən danışdılar.

"MEDİAFEST-2025" təkcə ideyaları ilə deyil, təşkilati səviyyəsi və texniki detalları ilə də diqqət çəkirdi. Tədbirin texniki tərəfləri – stendlər, səhnə dizaynı, işıqlandırma və görüntü tərtibatı funksional və estetik baxımdan uğurlu şəkildə hazırlanmışdı.

Azərbaycan milli mətbuatının 150 illiyinə həsr olunmuş videoçarx, xüsusilə Vətən uğrunda canlarını fəda edən jurnalistlərimizin xronoloji ardıcıllıqla göstərilməsi ümumi konseptə yeni çalar qatmışdı: Media, sadəcə, informasiya daşıyıcısı deyil, bəzən öz varlığı ilə mübarizənin içində olan bir missiyadır.



### *Zərdabi səhnədə – sözün ruhu qayıdır*

Tədbirin emosional mərkəzində Həsən bəy Zərdabinin səhnələşdirilmiş çıxışı dayanırdı. Səhnədəki obraz onun 150 il əvvəl "Əkinçi" qəzetini necə yaratdığından, söz azadlığı uğrunda çəkdiyi min bir əziyyətdən danışırdı.

Ən maraqlısı isə bu idi ki, Zərdabi sözün-medianın ən çox unudulduğu torpağa – Naxçıvana qayıtmışdı. Bu təkcə yubiley sürprizi deyil, bir ruhun geridönüşü idi; müasir jurnalist obrazı ona yaxınlaşır, Azərbaycanın artıq müstəqil olduğunu, medianın inkişaf etdiyini söyləyir. Zərdabi heyrətlənir, susur, kövrəlir və dua edir. Uzun illər azad mətbuatdan uzaq salınmış bir bölgə indi onun banisini qarşılamışdı…

### *Qapalı divarlar arxasında açıq perspektivlər*

Konfransın rəsmi hissəsindən sonra Fuad Nəcəfli ilə qapalı görüşümüz bu "kiçik torpaqla" bağlı böyük informasiyalar almağımıza kömək elədi.

– Dotasiya istisna olmaqla, 2024-cü ildə büdcə daxilolmaları 2022-ci illə müqayisədə 32 faiz artaraq 198 milyon manatdan 262 milyon manata yüksəlib;

– Dövlət büdcəsindən ayrılan dotasiyanın həcmi son iki ildə 56 faiz azalıb – 425 milyon manatdan 185 milyon manata enib;

– 2024-cü ildə Naxçıvan mərkəzi büdcəyə 107 milyon manat vəsait ötürüb;

– Yerli gəlirlər büdcənin ümumi gəlirlərindəki payını 31,78 faizdən 58,55 faizə qədər artırıb.

Bu statistikanı konfransda təqdim etmişdi, görüşdə isə dedikləri, bu nəticəni hansı çətinliklərlə əldə etməsi və daha böyük layihələr barədə qısa xülasə idi.

Görülən işlərin təkcə regional inkişafla məhdudlaşmadığı, bütövlükdə, Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsi, ölkəyə investisiya axınının təmin olunması, yeni geoiqtisadi marşrutların qurulması məqsədi daşıdığını söylədi. Onu da qeyd etdi ki, Zəngəzur dəhlizinin canlandırılması, logistika imkanlarının genişləndirilməsi, sənaye və kənd təsərrüfatı, "yaşıl enerji zonaları"nın təşkili, hətta bəzi layihələrin artıq xarici investorlara təqdim edilməsinə hazırlıq görülür.

Amma təəssüf ki, bu böyük planlar üçün çatışmayan zəncir halqaları da var.

Fuad Nəcəfli çox açıq şəkildə dedi ki, kadr problemi bu proseslərin ən ciddi əngəllərindən biridir. O həm peşəkar, həm də güvənilən kadrların çətin tapıldığını dilə gətirdi. Bildirildi ki, obyektiv səbəblərdən (illərlə əngəllənən idarəetmə sistemi nəticəsində) yerli potensial yetərli deyil.

Nəticə olaraq: layihələr var, siyasi iradə var, iqtisadi imkanlar var. Amma bu platformaya uyğun vicdanlı, işgüzar, etibarlı kadrlar hələ də azdır. Media isə bu boşluqları göstərmək, həm də bəzən körpülər qurmaq üçün vacibdir.

### *Bir vaxtlar uşaq, bu gün isə ümid*

Düz 20 il əvvəl təcrübədən qayıdarkən dərs dediyimiz şagirdlərdən birini də özümüzlə Bakıya gətirmişdik. Valideynləri onu şəhərdəki qohumlarının yanına göndərirdi. Amma biz düşündük ki, yalnız qohum evi deyil, başqa bir ünvan da göstərək. Gələcəyi tanıtmaq üçün onu əvvəlcə universitetə apardıq. Böyük dəhlizləri gəzdik, auditoriyalara baş çəkdik, ali məktəb havasını hiss etdirdik.

Həmin gün universitetdə rektorun iştirak etdiyi tədbirdə təklif etdik ki, o da tribunaya çıxıb danışsın. Altıncı sinifdə oxuyan, lap ucqardan gəlmiş bir uşaqda hələ bizim özümüz üçün də çox uzaq görünən ORA çıxmaqda tərəddüdlər də var idi. Amma çıxdı… və danışdı. Özü də hamını heyrətləndirəcək qədər gözəl.

Bu dəfə isə Naxçıvandan nigarançılıqla sanki bir adamı xilas edirmişik kimi köksümüzə sıxdığımız şagirdimizlə deyil, Bakıdan yol getdiyimiz həmkarlarımızın, rəsmi şəxslərin istiliyi, doğmalığının yaratdığı enerjiylə, işini böyük məsuliyyətlə görənlərdən qaynaqlanan fərəhlə qayıdıram.

Bir də Zəngəzur dəhlizinin mühüm hissəsində həyata keçirilən möhtəşəm layihələrdə yaxından çalışdıqları, çiyinlərində böyük yük daşıdıqları üçün Naxçıvandakı jurnalistlərə, xüsusən Günay Malikqızına, "Şərq qapısı" komandasına, Sara Əzimovaya və Cavanşir Bağırlıya təşəkkürlə qayıdıram.

Hə, bir də "Göycə" festivalından aldığım 2 kilo Çuxur göycəsiylə...

**Elçin Zahiroğlu**
***Naxçıvan, "MEDİAFEST-2025"***



# "MEDİAFEST-2025" Azərbaycan mətbuatında

## Naxçıvanda mühüm tədbir: üç tanınmış media nümayəndəsinin diqqətini nə çəkib?

*Mayın 30-da Naxçıvan Muxtar Respublikasında "Qlobal İnformasiya Mühiti və Media Trendləri" mövzusunda "MEDİAFEST-2025" konfransı keçirilib. Konfrans Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən təşkil olunub. Tədbirə dövlət və hökumət rəsmiləri, media nümayəndələri, jurnalistlər qatılıb.*

*Globalinfo.az tədbirdə iştirak edən tanınmış media nümayəndələrinin təəssüratlarını öyrənib.*



Saytımıza danışan ***media mütəxəssisi, professor Qulu Məhərrəmli*** deyib ki, "Qlobal İnformasiya Mühiti və Media Trendləri" konfransının keçirilməsi Azərbaycan mətbuatının 150 illiyi çərçivəsində müəyyənləşdirilmiş tədbirlərdən biri idi.

Onun sözlərinə görə, konfransda müasir dünyada gedən informasiya prosesi, sürətli informasiya axını, dezinformasiyanın artması, informasiya müharibəsinin genişlənməsi, müxtəlif bölgələrdə siyasi və təxribat məqsədilə aparılan çoxsaxəli informasiya müharibəsi kimi məsələlər nəzərdən keçirilib:

"Konfrans bir neçə məqamı ilə yadda qaldı. Orada təşkil olunan media sərgisi, gənc jurnalistlərin yaradıcılıq işləri, xüsusən konfrans çərçivəsində aparılan panel və o paneldə müxtəlif mövzuların müzakirəsi, debat formasında gerçəkləşdirilməsi effektli oldu. Media adamları arasında fikir mübadiləsi oldu ki, bu da müsbət cəhətdir. Mənim yadımda qalan iki məqam daha önəmlidir: birincisi, Naxçıvan televiziyasının peyk yayımına çıxmasının həmin konfransda nümayiş etdirilməsi idi. Bu, çox önəmlidir. Naxçıvan elə bir əhəmiyyətli bölgədədir ki, oradan verilən mesajlar, muxtar respublikanın həyatında cərəyan edən hadisələr, xüsusən Zəngəzur dəhlizi kontekstində Naxçıvanla Azərbaycanın digər bölgələrinin birləşdirilməsi, Türkiyə ilə əlaqələr, İranla münasibətlər, Ermənistanla hazırda qeyri-müəyyən bir şəkildə olsa da, ümumən, yaxşıya doğru gedən tendensiyalar diqqəti cəlb edir. İkincisi, Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının tələbələri və müəllimləri ilə görüşü xüsusi qiymətləndirirəm. Tələbələrin mediaya, jurnalistikaya, müxtəlif problemlərə, onları düşündürən məsələlərə münasibəti barədə mülahizələri dinləmək mənim üçün maraqlı oldu".

Professorun fikrincə, Azərbaycan mətbuatının 150 illiyi çərçivəsində aparılan tədbirlər xeyli dərinməzmunlu və cəmiyyəti düşündürən problemləri gündəmə gətirməklə müşayiət olunmalıdır.

***"ASAN Radio"nun (TV) direktoru, Əməkdar jurnalist Emin Musavi*** bildirib ki, konfransda ənənəvi medianın rəhbərləri, yeni rəqəmsal medianın nümayəndələri, bir sıra jurnalistlər iştirak edirdi:



"Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü, Medianın İnkişafı Agentliyi, Mətbuat Şurası və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin orqanı olan "Şərq qapısı" qəzetinin birgə təşkilatçılığı ilə keçirilən tədbir ən yüksək səviyyədə təşkil olunmuşdu. Orada media adamlarının, peşəkarların bir araya gəlməsi çox yaxşı haldır. Naxçıvanda yeni işlər görülür, inkişaf edir. Əgər bir yerdə gözəl hadisələr olursa, quruculuq işləri aparılırsa, hesabatlılıq da ən yüksək səviyyədə olmalıdır. Naxçıvanın rəhbərliyi, orada olan cavabdeh şəxslər media üçün açıq idilər. Bu, çox yaxşı haldır və bir ənənəyə çevrilməlidir. İstənilən məsələ, əsasən də ölkəmizdə aparılan işlər mütləq mediada dəqiq və ətraflı təqdim olunmalıdır. Vətəndaşlar bilməlidirlər ki, hansı dəyişikliklər gedir, nə işlər görülür, bunun faydası nədir və sair".

Emin Musavi deyib ki, media nümayəndələri üçün bu cür tədbirlərin keçirilməsi, ilk növbədə, həm təcrübə mübadiləsidir, həm də həmkarların ünsiyyət qurması üçün yaxşı bir fürsətdir:



"Tədbir təşkilatçılarının hər birinə təşəkkür edirəm ki, bizim üçün belə bir fürsət yarandı və mən vaxtilə bir yerdə işlədiyim bəzi həmkarlarımı müəyyən müddət sonra orada gördüm. Qeyd edim ki, səfər çərçivəsində qeyri-rəsmi tədbirlər də oldu. Naxçıvan qonaqpərvər insanları ilə seçilir. Ən böyük sərvət istənilən şəhərdə, kənddə, qəsəbədə, rayonda, ölkədə məhz insanların qonaqpərvər olmasıdır. Həm naxçıvanlı həmkarlarımızla ünsiyyətdə olmaq, həm də müxtəlif tarixi yerləri görmək, mədəniyyətinə, tarixinə toxunmaq xoş oldu. Naxçıvan mətbəxi isə ayrıca bir məsələdir".

Əməkdar jurnalist Naxçıvanda "Göycə" festivalında iştirak etdiklərini bildirib:

"Orada Naxçıvan rəhbərliyi ilə birlikdə fermerlərlə ünsiyyətdə olduq, müəyyən videolar, audiolar hazırlayıb elə öz mediamızda – "ASAN Radio"da izləyicilərə ötürdük. Bir sözlə, mənim üçün unudulmaz bir səfər oldu".

***Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid***in dediklərinə görə, Prezident İlham Əliyevin 25 apreldə imzaladığı Azərbaycan milli mətbuatının 150 illiyinin keçirilməsi ilə bağlı Sərəncamından sonra ilk belə böyük tədbirin keçirilməsi və tədbirlərin Naxçıvandan başlamasının rəmzi mənası var:

"Naxçıvan Azərbaycan mətbuatına mütəfəkkir insanlar verib. Belə ki, Cəlil Məmmədquluzadə, Məhəmməd ağa Şahtaxtlı 20-ci əsrin əvvəllərində ən məşhur "Şərqi-rus" qəzeti və "Molla Nəsrəddin" jurnalının naşirləri olublar. Adıçəkilən, eləcə də digər Naxçıvandan olan jurnalistika və ədəbiyyat xadimlərinin ruhunu şad etmiş olduq. Eyni zamanda Ümummilli Lider Heydər Əliyevin Azərbaycan mətbuatına dəstəyini xatırladıq və ölkə başçısına Sərəncama görə təşəkkürümüzü bildirdik".

Rəşad Məcid tədbirin yüksək səviyyədə hazırlandığını qeyd edib:

"Tədbirin əvvəlində Naxçıvan televiziyasının peyk yayımına qoşulması qeyd edildi, "Şərq qapısı" qəzetinin tarixi barədə danışıldı, "Məktəbli" qəzeti təqdim olundu, Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının təqdimatı maraqlı və yaddaqalan oldu. Eyni zamanda tədbirimiz yüksək səviyyədə keçdi. Fikrimcə, iştirak edənlərin hər biri bayram ovqatı yaşamış oldular. Buna görə də tədbir təşkilatçılarına təşəkkürümüzü bildiririk".

**Zaira AKİFQIZI**
***Globalinfo.az***

---



# Zərdabinin ruhunu şad edən Naxçıvan

Bu yaxınlarda naxçıvanlı dostlarımdan birinə "Naxçıvana gedirəm", – deyəndə çox maraqlı bir reaksiya verdi: "Ora artıq jurnalistləri buraxırlar ki?"

Bu sualdan sonra Naxçıvan səfəri daha da cəlbedici gəldi və orada olduğum müddətdə bu torpaqları daha çox kəşf etdim.

Naxçıvana "MEDİAFEST-2025" adı altında keçirilən "Qlobal İnformasiya Mühiti və Media Trendləri" konfransında iştirak üçün gəlmişdim.

Bu həm də Prezident cənab İlham Əliyevin milli mətbuatın 150 illik yubileyinin qeyd olunması ilə bağlı 25 aprel tarixli Sərəncamından sonra ilk genişmiqyaslı tədbir idi.

Tədbirdən öncə Naxçıvanda fəaliyyət göstərən media subyektləri ilə yaxından tanış olmaq şansı qazandım. Son dövlər sosial mediada çox fəal olan "Şərq qapısı" qəzetinin gənc kollektivini görəndən sonra bir daha əmin oldum ki, Naxçıvanda müasir texnologiyalardan, multimedia imkanlarından, hətta süni intellektdən də aktiv şəkildə istifadə edilir. 104 il tarixi olan qəzet bu gün laçın vaxtlarını yaşayır.

Eyni zamanda "Məktəbli" qəzetinin fəaliyyəti ilə yaxından tanış oldum. Bu qəzetdə şagirdlərin yazıları, məqalələri, məktəb tədbirlərinə geniş yer ayrılır. Qəzetdə diqqətimi çəkən isə şagirdlərin yazılarının əlyazma şəklində dərc edilməsi oldu.

"MEDİAFEST" çərçivəsində ən vacib məqamlardan biri də Naxçıvan televiziyasının "Azerspace-1" peyki üzərindən yayıma başlaması oldu. Bakıdan gələn media rəhbərləri Naxçıvan TV-yə xeyirdua verdi. Bakı ilə Naxçıvanın media vəhdəti bütün dünyaya yayıldı. Uzun illər məlumatsız olduğumuz Naxçıvan bu TV-nin sayəsində artıq peyk yayımında olacaq.



"Qlobal İnformasiya Mühiti və Media Trendləri" adlı konfrans da çox gözəl təşkil edilmişdi. Açılışda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, sonra Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin media ilə iş sektorunun müdiri Kamran Həsənov, Mətbuat Şurasının sədri Rəşad Məcid çıxış etdilər, mətbuatımızın tarixinə nəzər saldılar. Bundan sonrakı mərhələdə medianın qarşısına qoyulan məqsədlərdən danışdılar. Konfransda xarici jurnalistlərin də videotəbriki nümayiş etdirildi, Türkiyədən, Özbəkistandan, Qazaxıstandan, İtaliyadan məşhur jurnalistlər təbriklərini çatdırdılar.



Tədbirdə jurnalistlərin diqqətini ən çox cəlb edən məqamlardan biri də Həsən bəy Zərdabinin səhnələşdirilməsi oldu. Əslində isə həmin səhnə Zərdabinin ruhunun şad olduğunun göstəricisi idi. Çünki Zərdabinin arzusunda olduğu media artıq bütöv Azərbaycanı əhatə edir, Azərbaycanın hər nöqtəsindən xəbər hazırlaya bilir. Media tədbirləri bir vaxtlar işğal altında olan Şuşada, Xankəndidə, Laçında və bir vaxtlar senzura altında olan Naxçıvanda keçirilir.

Ümumilikdə, 2 günlük səfər zamanı Naxçıvan mənim üçün təmiz və təhlükəsiz küçələri, tıxacsız yolları, qonaqpərvər, güləruz, nizam-intizamlı insanları, şıltaq havası, möhtəşəm təbiəti, müqəddəs ziyarətgahları, müasirləşən restoranları, kafeləri ilə yadda qaldı.

Naxçıvan Hava Limanından təyyarə ilə Bakıya dönəndə isə həmkarlarım ən ümdə arzularından birini dedilər: "O gün olsun ki, növbəti dəfə Naxçıvana təyyarə ilə yox, quru yolu ilə gələk".

Əminəm ki, o gün də uzaqda deyil, bütün arzuları, duaları, xəyalları reallaşdıran dövlətimiz o günü də bizə nəsib edəcək.

Və Bakıya qayıdanda həmin dostuma dedim ki, artıq Naxçıvana nəinki jurnalistləri buraxırlar, hətta mətbuatın 150 illiyi ilə bağlı ilk ən böyük tədbir də Naxçıvanda keçirilir, jurnalistlərin iştirakı ilə "MEDİAFEST" keçirilir, Naxçıvan TV isə peyk yayımına çıxır.

**Hacıbəy HEYDƏRLİ**
***Mətbuat Şurası İdarə Heyətinin üzvü, AZXEBER.COM saytının redaktoru***





# Naxçıvanda “Uşaqların rəngli dünyası” festivalı keçirilib






“Konstitusiya və Suverenlik İli” çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü, Naxçıvan Şəhər İcra Hakimiyyəti, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, eləcə də Təhsil, Mədəniyyət, Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş “Uşaqların rəngli dünyası” festivalı keçirilib.

İki yüzə yaxın uşaq “Böyük bağ” adlanan ərazinin qarşısından tədbirin təşkil olunduğu Əcəmi seyrəngahına yürüş edib.

Bayram festivalında əvvəlcə uşaqlara daim böyük qayğı göstərən Ümummilli Lider Heydər Əliyevin “Əcəmi Seyrəngahı” Mədəniyyət və İstirahət Kompleksində yerləşən büstü önünə gül dəstələri qoyulub.

Sonra Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış ediblər.

Qeyd olunub ki, ölkəmizdə uşaqlara qayğının dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşməsi məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün dövlət uşaq siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Naxçıvanda da uşaqların, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqlarının və sağlamlıqlarının qorunması, təhsili, asudə vaxtının səmərəli təşkili, həmçinin istedadlarının üzə çıxarılması ilə bağlı tədbirlər görülür. Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə belə möhtəşəm festivalın keçirilməsi də uşaqlara göstərilən yüksək qayğının bariz nümunəsidir.

Sonra Naxçıvan şəhərində fəaliyyət göstərən uşaq bağçalarının balaca fidanları tərəfindən kompozisiya nümayiş etdirilib, təhsil sahəsində fərqlənən şagirdlər mükafatlandırılıb. Həmçinin uşaq musiqi məktəblərinin yaradıcı kollektivləri bir-birindən maraqlı musiqi və rəqs nümunələri ilə çıxış ediblər, maraqlı tamaşalar və personajların iştirakı ilə əyləncələr təşkil olunub.

Festival çərçivəsində Naxçıvan Şəhər İcra Hakimiyyəti tərəfindən şəhid və qazi ailələrinin uşaqlarına, sağlamlıq imkanları məhdud balacalara və festivalda iştirak edən uşaqlara hədiyyələr təqdim olunub. Yaradıcı şəxslərin, kollektivlərin əl işləri, rəngarəng stendlər uşaqlarda böyük maraq yaradıb. İştirakçıların asudə vaxtının, mədəni istirahətinin təmini üçün ərazidə iaşə xidmətləri də təşkil edilib.




# “Sağlam uşaqlar, sağlam gələcək” adlı tibbi müayinə aksiyası keçirilib



1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Naxçıvan Şəhər İcra Hakimiyyətinin dəstəyi, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Azərbaycan Pediatriya Cəmiyyətinin təşkilatçılığı ilə “Sağlam uşaqlar, sağlam gələcək” adlı tibbi müayinə aksiyası həyata keçirilib.

Tədbirin əsas məqsədi uşaqların sağlamlıq vəziyyətinin yoxlanılması, erkən diaqnostika və zəruri hallarda müalicə tədbirlərinin vaxtında həyata keçirilməsidir. Aksiya çərçivəsində Bakı şəhərindən dəvət olunmuş müxtəlif ixtisaslar üzrə həkim-mütəxəssislər – pediatrlar, pediatr-kardioloq, allerqoloq, pediatr-endokrinoloq, uşaq cərrahı, uroloq və digər sahələrin nümayəndələri tərəfindən uşaqların müayinəsi aparılıb.

Ümumilikdə, 300-dən çox uşaq əhatəli tibbi müayinədən keçib.

Aksiyada valideynlərlə maarifləndirici söhbətlər də aparılıb, onlara uşaqların sağlam inkişafı, düzgün qidalanma, fiziki aktivlik və profilaktik tədbirlərin əhəmiyyəti barədə geniş məlumat verilib.

Bu cür aksiyaların keçirilməsi uşaqların sağlam böyüməsinə, gələcəkdə sağlam cəmiyyətin formalaşmasına töhfə verməklə yanaşı, profilaktik tibbi baxışların əhəmiyyətini bir daha ön plana çıxarır.

# Şəhid ailələrinin övladları unudulmadı




“Cahan” Şirkətlər Qrupu 30 illik yubileyi və 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə şəhid övladlarına həsr olunmuş xüsusi sosial tədbir keçirib.

Tədbir çərçivəsində uşaqlara çoxsaylı hədiyyələr, eləcə də kiçik kitabxanalarını zənginləşdirmək məqsədilə müxtəlif yaş qruplarına uyğun kitablar təqdim edilib.

Layihə “Cahan” Şirkətlər Qrupunun sponsorluğu, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Naxçıvan Dövlət Universiteti və “Sevinc” İctimai Birliyinin birgə əməkdaşlığı ilə həyata keçirilib.

# “Hisslərin hərəkətlərlə harmoniyası” adlı hesabat konserti



“Şərq qapısı” qəzetinin informasiya və texniki dəstəyi ilə Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin Xoreoqrafiya şöbəsinin “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş “Hisslərin hərəkətlərlə harmoniyası” adlı hesabat konserti keçirilib.

Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin Xoreoqrafiya ixtisası üzrə müəllimi, layihə rəhbəri Fatimə Kazımova çıxış edərək ölkəmizdə, eləcə də muxtar respublikada xoreoqrafiya sənətinin inkişaf yolu və məktəbin bu sahədəki uğurlarından bəhs edib. Vurğulanıb ki, həmin məktəbin uşaqları Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə 1-ci Uşaq İncəsənət Festivalında solo nominasiya üzrə 2-ci və 3-cü, kollektiv nominasiyası üzrə 3-cü yerin qalibi olublar.

Sonra uşaq musiqi və incəsənət məktəbinin şagirdlərinin muxtar respublikanın bir sıra tarix və mədəniyyət abidələrinin qarşısında ifa etdikləri rəqs nömrələrindən ibarət videoçarx nümayiş olunub.

Konsert zamanı məktəbin istedadlı şagirdlərinin təqdimatında milli rəqslərimizdən Üzeyir Hacıbəyovun “Arşın mal alan”, Eldar Mansurovun “Azərbaycan”, “Qavalla rəqs”, Cavanşir Quliyevin “Yallı”, həmçinin xarici bəstəkarların əsərlərindən naxçıvanın ilk balerinləri tərəfindən “The Royal Ballet”, daha sonra “Flamenqo-Koster” təqdim olunub. Həmçinin Qarabağa həsr olunmuş kompozisiya nümayiş etdirilib.

# Bakı şəhərində keçirilən festivalda naxçıvanlı şagirdlərin əl işləri nümayiş olunub



Dənizkənarı Bulvarda Uşaq İncəsənət Festivalı çərçivəsində 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş konsert və əyləncəli proqram keçirilib. Tədbirdə 2023-cü ildə keçirilən I Uşaq İncəsənət Festivalının qalibləri tanınmış sənətçilərlə eyni səhnəni bölüşüb, istedadlı şagirdlərin əl işlərindən ibarət guşələr yer alıb.

Eləcə də Uşaq İncəsənət Festivalı-2023-də fortepiano nominasiyası üzrə 3-cü yerin qalibi olmuş Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Naxçıvan şəhər 4 nömrəli uşaq musiqi məktəbinin fortepiano ixtisası üzrə V sinif şagirdi Turan Abdullayevin də əl işləri nümayiş olunub.

Qeyd edək ki, tədbir Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Heydər Əliyev Mərkəzi, həmçinin Dənizkənarı Bulvar İdarəsinin birgə təşkilatçılığı ilə baş tutub.

Xatırladaq ki, Naxçıvanda Uşaq İncəsənət Festivalının 1-ci turuna yekun vurulub. Festivalda iştirak etmək üçün 1000-dən artıq şagird qeydiyyatdan keçib.



# Tanrıya saf və sonsuz sevgidən doğan müqəddəs bayram

Günəşin səmadan nur ələdiyi, qəlblərin aydınlandığı, ilahi sevginin yerlə göy arasında körpü saldığı müqəddəs bir bayramdır Qurban bayramı. Bu bayram, sadəcə, bir ibadət deyil, fədakarlığın, paylaşımın, mərhəmətin bayramıdır.

Əsrlərdir ki, müsəlman aləmində minlərlə ailənin ocağı bu bayramda daha gur yanır. Kəsilən qurbanlar ehtiyacı olanlarla bölüşülür, süfrələr genişlənir, qəlblər sevgi və mərhəmətlə dolur. Bu günlərdə zəngin-kasıb fərqi aradan qalxır, insanlar bir-birinə daha yaxın olur. Qurban bayramı, eyni zamanda bir xatırlatmadır – İbrahim Peyğəmbərin sədaqətini, İsmayılın təslimiyyətini, Allahın mərhəmətini xatırladır bizə. Zaman dəyişsə də, texnologiya, həyat tərzi, şəhərlər, adətlər başqalaşsa da, Qurban bayramı dəyişmir. Çünki onun kökü Qurana, özəyi isə insanın içindəki Allaha sevgiyə dayanır.

İslam dünyasının müqəddəs bayramlarından sayılan Qurban bayramı hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayram kimi qeyd olunur. Dünya müsəlmanlarının birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramını Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımız da sevinclə qeyd edirlər. Bu, xalqımızın mənəvi dəyərlərinə dövlət qayğısının nəticəsidir. Ümumilikdə, dini-mənəvi dəyərlərə həssas münasibət, müxtəlif dinlərə və sivilizasiyalara hörmət, tolerantlıq demokratik Azərbaycan cəmiyyətinin mənəvi əsaslarını təşkil edir.

Müqəddəs Qurban bayramı İslam aləmində ən əziz bayramlardan biri, eyni zamanda müsəlmanların Həcc ziyarəti mərasiminin bir hissəsidir. Dostluğun, qardaşlığın, fədakarlığın cəmiyyətdə inkişafı və gələcək nəsillərə təlqin edilməsi üçün gözəl fürsət kimi dəyərləndirilən Qurban bayramı hicrətin ikinci ilində fərz qılınıb. Sovet imperiyasının tərkibində yaşadığımız 70 il ərzində də xalqımız tarixi keçmişindən, dini və milli-mənəvi dəyərlərindən uzaqlaşmayıb. Bütün dövrlərdə Azərbaycan xalqı insani kamilliyə, mənəvi paklığa qovuşmağa, xeyirxah işlər görərək savab qazanmağa can atıb, İslam dininin mahiyyətini dərk edərək onun müqəddəs çağırışlarına, mərasim və ayinlərinə əməl etməyə çalışıb. Azərbaycan xalqı hələ sovet dönəmində bütün qadağalara baxmayaraq, müqəddəs Qurban bayramını qeyd edib.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bütün sahələrə ayrılan diqqət kimi, milli-mənəvi dəyərlərimizə də xüsusi önəm verilib. Dini ocaqların, müqəddəs yerlərin təmir və bərpa işlərinin əsası da o vaxtdan qoyulub. Ulu Öndər Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbriklərindən birində deyib: ***"Qoy bütün milli və dini bayramlarımız kimi mübarək Qurban bayramı da xalqımızın yüksək ideallar ətrafında daha sıx birləşməsini təmin etsin, azad, müstəqil və demokratik Azərbaycan dövlətinin gələcək inkişafı naminə bütün azərbaycanlılar arasında ümummilli həmrəyliyi möhkəmləndirsin!"***

Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə müəyyən etdiyi dəst-xət cənab İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin elə ilk dövründən əsas istiqamət kimi götürülüb. Prezident cənab İlham Əliyev dini-mənəvi dəyərlərin, maddi mədəniyyət abidələrinin bərpası və təmiri ilə bağlı ardıcıl tədbirlər görməyə başlayıb. Azərbaycan xalqının dini dəyərlərinə böyük ehtiram göstərən Prezident cənab İlham Əliyev hər il Azərbaycan xalqına bayram təbriki ünvanlayır və xoş arzularını çatdırır. Dövlətimizin başçısı müraciətində Qurban bayramının Allahın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi özündə mənəvi birliyi, həmrəyliyi, xeyirxahlığı və dözümlülüyü ehtiva edərək insanın ən çətin məqamlarda düzgün mövqe seçmək və ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini əks etdirdiyini vurğulayır.

Azərbaycan Prezidentinin cəmiyyətin mühüm təbəqəsi olan dindarlarla mütəmadi görüşləri, onların dini-mənəvi ehtiyaclarına həssaslıqla yanaşması, dini bayram və mərasimlərdə şəxsən iştirak etməsi xalq arasında böyük minnətdarlıqla qarşılanır, cəmiyyətdə etnik-dini dözümlülüyün təbliğində və təşviqində mühüm stimul rolu oynayır. Dövlətin bu sahəyə diqqət və qayğısı Azərbaycandakı bütün mövcud milli-etnik qrupları, dini-mənəvi təşkilatları əhatə edir. Bu gün Azərbaycanda dünya dinləri ənənəvi olaraq qarşılıqlı etimad və əmin-amanlıq şəraitində fəaliyyət göstərir, İslam və qeyri-İslam dini icmalar öz etiqadlarını azad və sərbəst şəkildə icra edirlər.

Bu gün Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaş və təmsil olunduğu təşkilatların fəal üzvüdür. Azərbaycanda mövcud olan tolerantlıq, multikulturalizm, ölkəmizin mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa verdiyi töhfələr diqqət mərkəzindədir və nümunə kimi göstərilir. Dünya siyasətinə əsaslı təsir imkanı olan müsəlman dövlətləri arasında həmrəyliyin möhkəmləndirilməsi prioritet məqsədə çevrilib.

Digər müsəlman ölkələri kimi, İslam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş edən respublikamızda da İslam dinindən irəli gələn vəzifələr böyük ehtiramla yerinə yetirilir. Qurban bayramı ilə əlaqədar hər il yüzlərlə zəvvarın Həcc ziyarətində olması xalqımızın öz dininə bağlılığının nümunəsidir. Əzəli torpaqlarımıza – doğma Qarabağımıza qayıdan soydaşlarımız dini bayramlarımızı, xüsusilə də həmrəylik, humanizm kimi ali dəyərlər aşılayan Qurban bayramını öz ata-baba yurdlarında ikiqat təntənə ilə qeyd edirlər. İnsanlara birlik, həmrəylik, şəfqət və xeyirxahlıq duyğuları aşılayan bu bayram ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da hər il geniş şəkildə qeyd olunur. Məscidlərdə bayram namazı qılınır, qurban əti paylanılır.

Milli-mənəvi dəyərlərə, ənənələrə sədaqət və qayğı ilə yanaşan bütün müsəlmanları hallalıq, paklıq, birlik, şəfqət və mərhəmət duyğularının təntənəsi olan Qurban bayramı münasibətilə təbrik edir, kəsilən qurbanların Tanrı dərgahında qəbul olunmasını diləyirik!

✍ **Gülcamal TAHİROVA**

## Naxçıvan Dövlət Universitetinin növbəti uğuru – süni intellektli qadın səhnədə




Naxçıvan Dövlət Universiteti, Türkiyənin İstanbul Universiteti – Cərrahpaşa, Düzce Universiteti, Gümüşhane Universiteti, Rusiyanın "Cənub" Universitetinin birgə təşkilatçılığı, Azərbaycanın və dünyanın müxtəlif ölkəsinin 60-dək elm-təhsil müəssisəsinin tədqiqatçılarının üz-üzə və onlayn iştirakı ilə "Süni intellekt: nəzəriyyədən praktikaya" II beynəlxalq elmi konfrans keçirilib.

Əvvəlcə Naxçıvan Dövlət Universitetinin növbəti uğuru kimi konfransın moderatoru süni intellektli qadın "Banu" səhnəyə çıxıb.

## "AJet" şirkətinin Naxçıvan Hava Limanına ilk uçuşu baş tutub




İyun ayının 3-dən etibarən "AJet" şirkəti həftədə iki dəfə olmaqla (çərşənbə axşamı və şənbə) İstanbul-Naxçıvan reysi üzrə uçuşlara başlayıb.

Bakı vaxtı ilə saat $05^{55}$-də İstanbuldakı Sabiha Gökçen Hava Limanından səmaya qalxan "AJet" şirkətinin təyyarəsi Naxçıvan Beynəlxalq Hava Limanına eniş edib.

Jurnalistlərə açıqlaması zamanı Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya qeyd edib ki, bu gün "AJet" şirkətinin Naxçıvan Hava Limanına ilk uçuşu baş tutdu. Bu əlamətdar hadisənin xeyirli və uğurlu olmasını diləyirəm.

"AJet" satış başqanımız Macit Bayar bəyə Naxçıvana xoş gəldiyini deyirəm. Bildiyiniz kimi, uzun illərdir, Türk Hava Yolları Naxçıvana uçuşlar həyata keçirirdi. Bu gündən etibarən isə bu vəzifəni "AJet" davam etdirəcək. Həftədə iki dəfə – çərşənbə axşamı və şənbə günləri olmaqla İstanbul-Naxçıvan-Gəncə üzərindən reyslər təşkil olunacaq.

Hava nəqliyyatı xalqları və ölkələri bir-birinə yaxınlaşdıran vacib bir ünsürdür. Ümid edirəm ki, "AJet"də münasib qiymətlərlə İstanbul ilə Naxçıvan arasında bir körpü rolunu oynayacaq və onsuz da bir-birinə yaxın olan xalqlarımızı daha da yaxınlaşdıracaq.

Asip Kaya, həmçinin vurğulayıb ki, bizim əsas gözləntimiz, bu uçuşların sayının həftədə iki dəfə ilə məhdudlaşmaması, gələcəkdə daha sıx və birbaşa reyslərin həyata keçirilməsidir. İnşallah, yaxın zamanda Naxçıvandan birbaşa İstanbul uçuşları da baş tutar.

Bu yeni addımın Naxçıvanımız və ölkəmiz üçün xeyirli olmasını diləyir, əməyi keçən hər kəsə təşəkkür edirəm.




# İstanbul-Naxçıvan: yeni üfüqlərə açılan qapı



Naxçıvan Beynəlxalq Hava Limanı bölgənin iqtisadi həyatının mühüm tərkib hissəsidir. Naxçıvanın coğrafi mövqe cəhətdən blokada şəraitində olması hava əlaqələrinin əhəmiyyətini daha da artırır. Bu məkan, sadəcə, bir hava nəqliyyatı mərkəzi deyil, həm də Naxçıvanın dünyaya açılan qapısıdır. Hər uçuş yeni bir hekayənin başlanğıcı, hər eniş isə Naxçıvanın qəlbinə qayıdış deməkdir. Və bu gün qardaş ölkənin mavi səmasından süzülərək Naxçıvana yol alan təyyarə yeni üfüqlərin başlanğıcı oldu.

"Qoca Şərqin qapısı" adlandırılan Naxçıvan ilə dünya mədəniyyət tarixində mühüm yeri olan İstanbul arasında yaradılan birbaşa hava əlaqəsi təkcə iki şəhəri deyil, iki qardaş xalqı da birləşdirən möhkəm körpüyə çevriləcək. Bu hava reysi Naxçıvanın, sadəcə, coğrafi deyil, eyni zamanda siyasi, iqtisadi və mədəni baxımdan daha geniş imkanlara çıxışını təmin edəcək.

İyunun 3-də "AJet" aviaşirkəti tərəfindən həyata keçirilən İstanbul-Naxçıvan reysi də Azərbaycan aviasiyasının qardaş ölkə ilə yaratdığı sağlam münasibətlər baxımından gələcəkdəki böyük uğurların təməli oldu. İstanbul-Naxçıvan reysi təkcə nəqliyyat xidməti deyil, həm də strateji əməkdaşlığın, dostluğun və qarşılıqlı dəstəyin bariz nümunəsidir. Türkiyə və Azərbaycanın hava nəqliyyatı sahəsində əməkdaşlığının nəticəsi olan bu reys gələcəkdə daha genişmiqyaslı layihələrin əsasını qoyur. Regionun hava nəqliyyatı infrastrukturu bu cür təşəbbüslərlə inkişaf etdikcə beynəlxalq uçuşların sayı da artacaq, bu isə Naxçıvanın turizm və iqtisadi potensialının üzə çıxarılması üçün geniş imkanlar yaradacaq. Bu hadisə həm Azərbaycan, həm də qardaş Türkiyə üçün önəmli bir addımdır. Bu uçuş yalnız nəqliyyat deyil, eyni zamanda strateji və siyasi əməkdaşlığın bariz nümunəsidir. İstanbul reysi Naxçıvan sakinlərinə təkcə Türkiyə ilə deyil, eyni zamanda İstanbul vasitəsilə dünyanın müxtəlif ölkələrinə rahat çıxış imkanı yaradır. "AJet"in bu yeni marşrutu Naxçıvan və Türkiyə arasında "hava körpüsü" rolunu oynayacaq. Bu təşəbbüs təkcə turizm və işgüzar səfərlər üçün deyil, həm də mədəni və iqtisadi əlaqələrin inkişafı baxımından da vacibdir. Eyni zamanda bu reys iki qardaş xalqı birləşdirən səmavi bir bağ kimi dəyərləndirilə bilər. Bütün bunlar göstərir ki, regionun hava nəqliyyatı infrastrukturu gələcəkdə daha çox beynəlxalq uçuşların həyata keçirilməsinə şərait yaradacaq. Beləliklə, bu mənzərə fonunda İstanbul-Naxçıvan reysi təkcə bir marşrut deyil, həm də ümidin, əməkdaşlığın və gələcəyə inamın simvoludur. Səmada çəkilən bu xətt Naxçıvanın yeni üfüqlərə açılan qapısıdır.

✍ **Bülbül QULİYEVA**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2025-ci ilin iyun ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 11.06.2025, saat $10^{00}$, Sədərək rayonu, Heydərabad Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Vətən Abbas oğlu 050-453-14-19 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 12.06.2025, saat $11^{00}$, Sədərək rayonu, Dəmirçi Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 27.06.2025, saat $11^{00}$, Şərur rayonu, Axaməd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 4 saylı Yengicə seçki dairəsi üzrə Abbasov Əli Feyzulla oğlu | 12.06.2025, saat $15^{00}$, Şərur rayonu, Aralıq kənd tam orta məktəbinin binası, məktəbin kollektivi ilə<br>12.06.2025, saat $17^{00}$, Şərur rayonu, Aşağı Aralıq və Yuxarı Aralıq kəndləri, səyyar qəbul | Nəcəfov Milad Niyaz oğlu, 060-201-11-91 |
| 5. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 11.06.2025, saat $11^{00}$, Şərur rayonu, Çomaxtur Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 6. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 03.06.2025, saat $15^{00}$, Şərur rayonu, Çərçiboğan Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-12 |
| 7. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 19.06.2025, saat $11^{00}$, Şərur rayonu, Dərvişlər Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 8. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 20.06.2025, saat $15^{00}$, Şərur rayonu, Zeyvə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədova Fatimə Hüseyn qızı, 060-209-99-93 |
| 9. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 03.06.2025, saat $15^{00}$, Şərur rayonu, Məmmədsabir Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfov Məhəmməd Ramazan oğlu, 060-310-07-06 |
| 10. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 20.06.2025, saat $11^{00}$, Şərur rayonu, Şəhriyar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İsmayılova Mahı Arif qızı, 070-755-00-76 |
| 11. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 03.06.2025, saat $15^{00}$, Şərur rayonu, Havuş Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Kərimova Tərifə Məmməd qızı, 050-719-85-39 |
| 12. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 18.06.2025, saat $15^{00}$, Şərur rayonu, Yeni Havuş və Xətai kəndləri, Yeni Havuş Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 13. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 20.06.2025, saat $15^{00}$, Şərur rayonu, Püsyan Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İbrahimov Allahverdi İsa oğlu, 050-571-33-03 |
| 14. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 11.06.2025, saat $11^{30}$, Kəngərli rayonu, Yurdçu Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Musayev Musa Abdulla oğlu, 060-418-18-88 |
| 15. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 04.06.2025, saat $11^{00}$, Kəngərli rayonu, Böyükdüz Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Vəfa Elman qızı, 060-491-30-96 |
| 16. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 05.06.2025, saat $11^{00}$, Kəngərli rayonu, Yeni Kərki Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 17. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 19.06.2025, saat $15^{00}$, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynov Elvin Hüseyn oğlu, 050-246-67-78 |
| 18. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 05.06.2025, saat $15^{00}$, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 19. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 24.06.2025, saat $10^{00}$, Babək rayonu, Hacıvar kəndi, səyyar qəbul | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 20. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 18.06.2025, saat $11^{00}$, Babək rayonu, Göynük kəndi, səyyar qəbul | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 21. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 18.06.2025, saat $15^{00}$, Babək rayonu, Kültəpə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 22. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 25.06.2025, saat $11^{00}$, Babək rayonu, Yuxarı Buzqov Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 23. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 20.06.2025, saat $11^{00}$, Babək rayonu, Cəhri qəsəbə 2 nömrəli tam orta məktəbin binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90 |
| 24. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 23.06.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, Tumbul Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 25. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 25.06.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynli Bəhriyə Məzayıl qızı, 060-387-07-77 |
| 26. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 23.06.2025, saat $17^{00}$, Naxçıvan şəhəri, 1 saylı Mənzil İstismar İdarəsi | Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85<br>Məmmədova Ziniyət Zakir qızı, 060-544-23-13 |
| 27. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 13.06.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, Kalbalıxan küçəsi, şəxsi və 5, 41, 44 nömrəli kommunal evlərin sakinləri, səyyar qəbul | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 28. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 20.06.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, Nəcməddin Naxçıvani küçəsi, səyyar qəbul | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 29. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 20.06.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, E.Sultanov adına 7 nömrəli tam orta məktəbin binası | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 30. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 19.06.2025, saat $12^{00}$, Naxçıvan şəhəri, A.Cəlilov adına 12 nömrəli tam orta məktəbin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 31. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 25.06.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, M.C.Cəfərov adına 14 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 32. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 27.06.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, Xətai məhəlləsi, səyyar qəbul | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 33. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 19.06.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, Əliabad Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 34. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 20.06.2025, saat $11^{00}$, Şahbuz rayonu, Keçili Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 35. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 12.06.2025, saat $11^{00}$, Şahbuz rayonu, Gömür Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Adilzadə Adil Azər oğlu, 060-307-07-37 |
| 36. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 27.06.2025, saat $16^{00}$, Babək rayonu, Didivar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qasımov Bəhlul Fərəməz oğlu, 050-483-29-78 |
| 37. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 20.06.2025, saat $10^{00}$, Culfa Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədov Rəhman Abasət oğlu, 060-469-08-69, 077-569-43-65 |
| 38. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 20.06.2025, saat $11^{00}$, Culfa rayonu, Dizə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Canbaxşiyev Səməd Canbağış oğlu 060-252-15-19 |
| 39. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 12.06.2025, saat $11^{00}$, Culfa rayonu, Ərəzin Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 40. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 03.06.2025, saat $10^{00}$, Culfa rayonu, Ləkətağ Kənd Mərkəzinin binası; kənd sakinləri ilə<br>03.06.2025, saat $12^{00}$, Culfa rayonu, Ləkətağ kənd tam orta məktəbinin binası; məktəbin kollektivi ilə<br>11.06.2025, saat $10^{00}$, Culfa rayonu, Teyvaz Kənd Mərkəzinin binası; kənd sakinləri ilə<br>11.06.2025, saat $12^{00}$, Culfa rayonu, Teyvaz kənd tam orta məktəbinin binası; məktəbin kollektivi ilə | Təhməzov Rafiq Rafiq oğlu, 060-406-07-77 |
| 41. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 12.06.2025, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>27.06.2025, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 42. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 05.06.2025, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası,<br>19.06.2025, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası,<br>24.06.2025, saat $15^{00}$, Ordubad rayonu, Əndəmic kənd tam orta məktəbi; seçki dairəsi ərazisindən ali məktəblərə qəbul olunmuş abituriyentlərlə görüş | Hacıyev Çinar Sahib oğlu, 060-352-52-53 |
| 43. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 25.06.2025, saat $16^{00}$, Ordubad rayonu, Dırnıs Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01 |
| 44. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 03.06.2025, saat $15^{00}$, Ordubad rayonu, Düylün Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rzayev Elmir Elmar oğlu, 055-317-62-01 |
| 45. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı | 20.06.2025, saat $12^{00}$, Ordubad rayonu, Nürgüt Kənd Mərkəzinin binası | Əhmədov Suat Yusif oğlu, 060-200-09-30, 077-573-75-00 |

# Bizi mədəniyyətimiz, tariximiz, həm də torpaq, Vətən sevgisi birləşdirir



*Dünyada yüzlərlə millət, bir çox dövlət var olsa da, eyni kökdən gələn ayrı-ayrı xalqların çoxu bir-biri ilə nəinki qardaş, dost belə ola bilmir. Biz türklər isə tamam başqa bir xarakterə malik xalqıq. Düzdür, tarixin səhifələrində bizi qarşı-qarşıya gətirən bəzi məqamlar olsa da, insanlar həqiqəti gördükdə bizə bizdən başqa dost ola bilməyəcəyimizi dərk edib birləşmişik. Sovetlər birliyinin tərkibində yaşadığımız 70 il ərzində bizimlə bərabər əsarətdə qalan türkdilli dövlətlərlə əlaqələrimizi itirməmiş, çətinliklə də olsa, milli adət-ənənələrimizi yaşatmışıq. Və məqam gəlib yetişəndə, müstəqil olanda, zəncirdən açılan əllərimiz bir-birinə qovuşanda daha möhkəm birləşib türk yumruğuna dönmüşük.*

***Naxçıvandan başlayan yol Şuşaya çatdı***

2009-cu ilin oktyabrında Türkdilli dövlət başçılarının Naxçıvan Zirvə görüşündən başlanan yol bu gün Şuşada daha geniş tərkibdə və artıq beynəlxalq statuslu Türk Dövlətləri Təşkilatı (TDT) miqyasında davam edir. Geridə qalan illər ərzində türk dövlətləri arasında strateji tərəfdaşlıq yalnız yüksələn xətlə inkişaf edib. Türk xalqlarının bir yumruq kimi birləşməsi yolunda Azərbaycanın atdığı inamlı addımların nəticələri isə göz qabağındadır. Azərbaycanın Zəfər şəhəri Şuşa tarixinin ən gözəl günlərindən birinə ev sahibliyi edir, türk xalqlarının birliyinə qucaq açır. Zəfərin şəhərində Zəfər zirvəsini fəth edən türk xalqlarının görüşünə şahid olmaq damarında türk qanı axan hər kəsi sevindirir.

Beynəlxalq siyasi dialoq məkanına çevrilən Şuşada keçirilən görüş təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının zəfər zirvəsi oldu. Belə bir möhtəşəm tədbirin Şuşada – Türk dünyasının mədəniyyət paytaxtında keçirilməsi isə türk coğrafi məkanında inteqrasiyanın dərinləşməsinə, qardaşlıq bağlarının daha da möhkəmlənməsinə stimul olacaq. Bu Zirvə görüşü həm də Azərbaycanın öz ərazi bütövlüyünün bərpası üçün apardığı mübarizədə ona verilən qardaşlıq dəstəyinin, ölkəmizin türk dövlətləri arasında körpü olduğunun göstəricisidir. Müasir Azərbaycan dövlətinin təməlinin qoyulduğu Naxçıvanda ilk addımını atan Türk Dövlətləri Təşkilatının görüşünün məhz Şuşada – Zəfər şəhərində keçirilməsi həm də siyasi məna daşıyırdı.

***Bizim ailəmiz Türk dünyasıdır***

Türk Dövlətləri Təşkilatı fəaliyyət göstərdiyi ötən müddətdə səmərəli inkişaf yolu keçib. Qurum 173 milyona yaxın insanın yaşadığı böyük bir coğrafiyada və qlobal miqyasda güclü təşkilat kimi tanınıb. Türk dünyası hazırda beynəlxalq münasibətlərin yeni bir güc mərkəzi kimi mühüm önəm daşıyır, ciddi geosiyasi və geoiqtisadi çəkiyə malik olması ilə diqqət çəkir. Bunu statistik göstəricilər də təsdiq edir. Hazırda bu dövlətlərdə ümumi daxili məhsulun həcmi 1,5 trilyon dollar, ticarət dövriyyəsi isə 1,2 trilyon dollar təşkil edir. Ümumilikdə, dünya ərazisinin 1 faizi, ticarət dövriyyəsinin isə 2,4 faizi TDT-yə üzv ölkələrin payına düşür.

Bir məqamı da qeyd edək ki, ötən müddətdə Azərbaycan Türk Dövlətləri Təşkilatına üzv ölkələrin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoyub. Təsadüfi deyil ki, Prezident İlham Əliyev TDT ölkələri ilə bütün sahələrdə əlaqələrin möhkəmləndirilməsini Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri elan edib. Dövlətimizin başçısı 2024-cü il fevralın 14-də yenidən ölkə Prezidenti seçilməsi münasibətilə keçirilən andiçmə mərasimindəki çıxışında TDT-yə üzv bütün ölkələrlə qardaşlıq münasibətləri olduğunu və dövlət siyasətimizin bu təşkilatı gücləndirmək məqsədi daşıdığını bildirib. Prezident İlham Əliyev daha sonra vurğulayıb: ***"Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi güсdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".***

***Turanı birləşdirən ümid körpüsü – Naxçıvan***

***"Naxçıvan Türk-İslam dünyasına bir qapıdır"***, – deyən xalqımızın Ümummilli Liderinin ***"Mən ona özüm qədər inanıram. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək"*** kəlamını dediyi vaxtdan cəmi 22 il ötsə də, zaman tez-tez böyük Heydər Əliyevin – o siyasət dahisinin bütün bəlalardan xilas edərək ayağa qaldırdığı Azərbaycanı əmin əllərə təslim etdiyini təsdiqləyir. Xalqına arxalanan Müzəffər Sərkərdə bizə Vətən müharibəsində Böyük Qələbəni bəxş etdi, ərazi bütövlüyümüz bərpa olundu. Azərbaycan Prezidenti Naxçıvan Muxtar Respublikasının blokadadan azad edilməsi istiqamətində çox önəmli və tarixi bir məsələnin həllini təmin edərək 2020-ci il noyabrın 10-da imzalanmış birgə Bəyanata qədim diyarla bağlı xüsusi bir maddəni – 9-cu bəndi salmaqla önümüzdəki illərdə muxtar respublikanın beynəlxalq nəqliyyat dəhlizinə çevrilməsinə şərait yaratdı. Zəngilandan Naxçıvana dəmir yolu xəttinin və avtomobil yollarının tikintisi Zəngəzur dəhlizinin açılması ilə yanaşı, həm də Naxçıvanı Türk dünyası üçün qapıya çevirəcək.

Bəli, Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün dediyi həmin günə – Naxçıvanın Türk dünyasına qapı olacağı günə az qalıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də artıq gediləcək yolun istiqamətini elan edib: ***"Bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir".***

Bu gün türk dövlətlərinin birliyi dünyaya bu mesajı verir:

Şanlı zəfər qazanan Azərbaycan öz siyasi gücü ilə Zəngəzurdan sülh yolu ilə keçib bütün Türk dünyasını bir-birinə birləşdirən körpü olacaq. TDT-nin ilk addımının atıldığı Naxçıvan Turana açılan qapıya, ümidlərin, xəyalların gerçəyə çevrildiyi məkana dönəcək. Biz buna inanırıq, çünki bizi dilimiz, dinimiz, mədəniyyətimiz, tariximizlə bərabər ürəyimizdəki torpaq, Vətən sevgisi də birləşdirir. Bu sevgi bağını heç bir güc qıra bilməyib, bilməyəcək də.

**Ramiyə ƏKBƏROVA**

# Qayıdış nəğməsi



Doğma Qarabağın düşmən işğalından təmizlənməsi və bu torpaqlara başlayan Böyük Qayıdış ruhumuzu yeniləyən Vətən nəğmələri ilə də yaddaşlarımıza həkk olunur. Azərbaycan muğamının şah əsəri "Qarabağ şikəstəsi"nin sədaları 30 illik işğal zamanında qüssəli ürəyimizə su səpsə də, bir gün mütləq bu zillətin sona çatacağına, yenidən "Qarabağ bülbülləri"nin bizi sevinc göz yaşlarına boğacaq zəngulələrinə heyran qalacağımıza əmin idik. Və həmin günlər yenidən gəldi. 44 günlük Vətən savaşı günlərində silahını əlindən yerə qoymayaraq dastana dönən, döyüşən qəhrəmanımız "Xudayarın təsnifi" bir şücaət nəğməsi kimi hər bir azərbaycanlının dillər əzbəri oldu. Bu mahnı qısa müddətdə elə bir sevgi qazandı ki, o zaman hələ əsgər yaşına çatmayan körpə balalar, gələcəyin əsgərləri, kişiləri də ona köklənib, hamı bir nəfər kimi "Vətən yaxşıdır!" – dedi.

Qarabağ Azərbaycan mədəniyyətinin beşiyi, Şuşa onun paytaxtı, Ağdam isə muğam mərkəzidir. Qarabağın düşməndən azad olunmasından sonra buradan ucalan azad nəğmələr, bu mənada, tarixə, keçmişə qayıdış səsləri olmaqla dövlətimizin bu torpaqlarda həyata keçirdiyi "Böyük Qayıdış" proqramının da "Mədəniyyət" fəsli kimi uğurla icra olunmağa başladı. Şübhəsiz, inkişaf edən Azərbaycan tamamən öz imkanları hesabına bərpa etdiyi Qarabağda həyata keçirdiyi vacib infrastruktur və quruculuq tədbirləri ilə yanaşı, qədim diyara sahib olduğu musiqi mədəniyyətini də qaytarmaqla qalib ordunun Ali Baş Komandanı, dövlət başçımız Prezident İlham Əliyevin bu sahədəki uğurlu imzasını da tanıtdı. İmza isə artıq çoxdan tanışdır! Bacarıqlı siyasətçi və dövlət başçısı kimi verdiyi müdrik qərarları, Ali Baş Komandan kimi qətiyyəti ilə tanınan Prezident İlham Əliyevin Qarabağda oxunan Vətən nəğmələrini dinləyərkən dolan gözlərindən süzülən kövrəkliyi və xüsusən balaca ifaçılara olan sevgisi onun bu dünyanın ən zərif qəlbli, humanist insanı olduğunu da bütün dünyaya tanıtdı.

Bu gün Qarabağ sürətlə öz iqtisadiyyatına və mədəniyyətinə qayıdır. Dövlət başçımız İlham Əliyevin və mədəniyyətimizin böyük hamisi, birinci xanım Mehriban xanım Əliyevanın Qarabağın özünə qayıdışı üçün gördüyü misilsiz işlər bir-bir reallaşdıqca insanlar da öz doğma yurdlarını daha abad, daha firavan görür, bunun xoşbəxtliyini yaşayırlar. Belə bir xoşbəxtliyi Azərbaycan xalqının ən həssas hisslərinə yaxşı bələd olan bütün insanlar təkcə təbiətin incisi deyil, həm də Qarabağın simvolu olan xarıbülbülün adını daşıyan musiqi festivalında bir daha gördülər. 2021-ci ilin 12 mayında işğaldan sonra Şuşada, Cıdır düzündə keçirilən ilk "Xarıbülbül" festivalının açılışında səslənən və əks-sədası Daşaltı qayalarından Xankəndiyə qədər gedib çatan "Bayatı-Şiraz" muğamı bu dəfə də sarı simlərə toxundu. O vaxt gənc Kənanın heyrətamiz zil səsinin ürəkləri titrədən zənguləsi "Zəfər nəğməsi" kimi də yaddaşımıza yazıldı.

Musiqi və mədəniyyət xalqları birləşdirən, insanlara mənəvi ruh verən, yaradıcı həyata yeni məna qazandıran yumşaq, amma böyük bir gücdür. Bu mənada, Qarabağda qurulan hər bir məktəb, hər bir mədəniyyət ocağı təkcə bir bina deyil, həm də bu torpaqlarda tikilən uzunömürlü qalalardır. Azərbaycan xalqının minillik musiqi mədəniyyətinə yenidən ev sahibliyi edən Ağdam Muğam Mərkəzi isə bu il mayın 10-da – Ulu Öndər Heydər Əliyevin doğum günündəki möhtəşəm açılışı ilə simvolik olaraq Ağdamın ruhunu da özünə qaytardı. Bu tədbirdə çıxış edən doqquzyaşlı balaca Əhədin ifasındakı "Qarabağ şikəstəsi" isə dayanmadan qaynayan bulaq suyu kimi ürəklərdəki 30 illik yanğını da söndürdü. İnsanın qəlbini oxşayan bu "Qayıdış nəğməsi" isə yenə də hamıdan çox dövlət başçımız İlham Əliyevi kövrəltdi. Çünki bu nəğmə musiqinin, muğamın Ağdama qayıdışı, mədəniyyətin işğala, zülmə və vandalizmə qarşı qələbəsinin simvolu idi. Artıq Ağdama qayıdan həzin muğam bundan sonra daha da coşaraq bütün Qarabağa yayılıb, gümüş nallı Boz atın belində Qubadlıdan Xudafərinə çapan Qaçaq Nəbinin salamlarını Araza qovuşduracaq.

**Şəlalə CABBAROVA**
***Heydər Əliyev adına tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi***

# Xaraba Gilanda arxeoloji qazıntı işləri aparılır

*Ərazidəki tədqiqat işlərini Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun Xaraba Gilan arxeoloji ekspedisiyası həyata keçirir. AMEA Arxeologiya və Antropologiya İnstitutunun şöbə müdiri, Xaraba Gilan arxeoloji ekspedisiyasının rəhbəri, dosent Bəhlul İbrahimlinin rəhbərliyi ilə müstəqilliyin bərpasından sonra ərazidə dəfələrlə araşdırma işləri aparılıb, abidə dərin tədqiqata cəlb olunub. Xaraba Gilan arxeoloji ekspedisiyası tərəfindən aparılan arxeoloji tədqiqatların ən mühüm nəticələrindən biri kimi Naxçıvanın ilkin orta əsrlər dövrü tarixinə aid tapıntıları aşkara çıxarılıb.*





Bu barədə jurnalistlərə açıqlama verən Bəhlul İbrahimli bildirib ki, hazırda ikinci memorial kompleksdə qazıntı işləri aparılır: "Şəhərdə iki dağın üzərində, şəhərin şərq tərəfində birinci memorial kompleks, hansı ki 30-a qədər türbə var, hamısı daşdan işlənmiş türbələrdir. Hamısının da sərdabələri var. Onların içərisində ikisi yuxarısı bişmiş kərpicdən işlənilib. Memarlıq köynəyi var və həndəsi naxışlarla işlənib. Divarlarının kürsülüyü qalmasa da, onları müqayisə edib, türbənin təqribi hündürlüyünü deyə bilirik. Birinci memorial kompleksdəki türbələrdən biri 8 bucaqlıdır. Möminə xatun isə 10 bucaqlıdır. Bu türbə üzərində də eynilə Möminə xatunda olan naxışlar, ornamentlər işlənilib. Memarlar da təsdiq edir ki, bu abidə Əcəmi Əbubəkr oğlu tərəfindən işlənib. İkinci türbə kubşəkillidir. Çox maraqlı məqam ondan ibarətdir ki, Xaraba Gilan ərazisindəki türbələrdən təkcə biri qülləvaridir. Bilirsiniz, memarlar arasında belə fikir var ki, Azərbaycanda, Cənubi Qafqazda, Urmiya ətrafındakı memorial türbələrin əksəriyyəti qülləvaridir. Ancaq Xaraba Gilanda aparılan tədqiqatlar göstərir ki, bu ərazidə yerləşən 40-a qədər türbədən yalnız biri bu tiplidir".

Bəhlul İbrahimli qeyd edib ki, mənbələrdə Nəsirəddin Tusinin atasının əslən buralı olduğu deyilir: "Alimin atası "Cəhrudi" ləqəbi ilə tanınıb, Cəhridən olduğu bildirilir, Vaqif Piriyev kitabında bu cür göstərib. Tus şəhərinə oxumağa gedib və qayıdanda da bu ərazidə yaşayıb, burada torpaqları olub".

AMEA Antropologiya şöbəsinin elmi işçisi Ülkər Allahverdiyeva qeyd edib ki, burada apardığımız tədqiqatlar nəticəsində sərdabənin üst qatından bir çox insan skeleti qalıqları tapılıb: "Ancaq sərdabə daha əvvəl dağıdıldığından bütün bu skelet parçaları pərakəndə halda idi. Nəhayət, tabutların səviyyəsinə çatanda məlum oldu ki, burada altda anatomik skeletlər mövcuddur. Haradasa üstdən 10 nəfərə yaxın insanın qalıqlarını aşkarladıq. Ancaq hazırda açdığımız bu kiçik hissədə isə 5 insan qalığı müəyyənləşdirmişik. Onlar kəfənə bürünüb və hətta birincinin altına 3 dənə döşək



qoyulub. Bundan başqa, müəyyən olunub ki, ikinci insan qalığının üzərində paltar da var. Bu nadir rast gəlinən haldır. Aparılacaq əlavə tədqiqatlarla bu insanların yaşı, cinsi, xəstəliyi, ölüm yaşı müəyyən olunacaq".

## Ekstremal şəraitdə sağ qalmaq üzrə təlimçi Saleh Baxşiyevin Zəngəzur Milli Parkından lentə aldığı möhtəşəm görüntülər





























# Bakıdan dünyaya minifutbol zəfəri

21 mayda Bakı dünya minifutbolunun nəbzini tutmağa başladı. 32 komandanın iştirakı ilə başlayan bu möhtəşəm çempionat Azərbaycan üçün təkcə bir turnir deyildi – bu, bir millətin arzularının meydana çıxması idi. Milli Gimnastika Arenasında baş tutan oyunlar, elə bil, stadion divarlarını aşaraq hər bir azərbaycanlının qəlbinə toxunurdu. Azərbaycan-Bəhreyn, Azərbaycan-Mavritaniya, Azərbaycan-Rumıniya, Azərbaycan-İngiltərə, Azərbaycan-Monteneqro və nəhayət, Azərbaycan-Macarıstan qarşılaşması... Tarixə yazılan o gün! Azərbaycanın möhtəşəm millisi Macarıstanla qarşı-qarşıya gəldi. Arena nəfəs almırdı. Gərginlik, həyəcan, qürur – hər şey iç-içə keçmişdi. Və... Təmkin Xəlilzadənin zərbəsi, Məhəmməd Xəlilovun dəqiq vuruşu və Rəvan Kərimovun iki dəfə rəqib qapısına yol tapması! Skorbordda 4:2 yazıldı. Azərbaycan dünya çempionu oldu!

Elşad Quliyevin rəhbərliyi altında tarix yazan bu gənclər – bu torpağın, bu xalqın övladları – yalnız meydanda yox, ürəklərdə də qalib oldular. Millimizin bütün üzvlərinin Azərbaycanda yetişməsi isə bu qələbəyə ayrı bir dəyər qatdı. Bu yalnız bir idman uğuru deyildi – bu, milli inamın, zəhmətin və sədaqətin təntənəsi idi.

Qələbədən sonra Prezident İlham Əliyevin komandamızı qəbul etməsi, onların qarşısında duyduğu qüruru sözlərlə ifadə etməsi bu hadisənin nə qədər önəmli olduğunu bir daha göstərdi. Prezidentin çıxışındakı bir neçə cümlə belə hər şeyi ifadə etməyə bəs edirdi: ***"Bu gün Azərbaycan milli komandası sırf Azərbaycanda doğulmuş, boya-başa çatmış gənclərdən ibarətdir və bu da xüsusi qürur hissi oyadır... Mən əminəm ki, bundan sonra da siz bizi sevindirəcəksiniz..."***

Dövlət başçısının səsləndirdiyi bu cümlələr sanki minifutbolun sabahı üçün yeni yol xəritəsi idi – yeni meydançalar, bölgələrdə idmanın inkişafı, gənclərin bu sahəyə olan marağının artması...

Bu çempionatın, sadəcə, qəhrəmanları yox, eyni zamanda simvolları da var idi. Onlardan biri isə çempionat başladığı andan hər kəsin rəğbətini və gülüş hissini qazanmağı bacaran Maralzadə idi. Rəsmi maskot pozitivliyi, enerjisi, şən davranışları ilə oyunlara bir başqa rəng qatdı. Onu canlandıran Aqil Nəcəfzadə isə öz işi ilə fəxr etdiyini deyərək hisslərini bu sözlərlə ifadə etmişdi: "Obrazımı, ümumilikdə, işimi çox sevirəm. Hesab edirəm ki, hər kəs öz işini sevərək görsə, ölkəmizdə hamı xoşbəxt olar".

Əlbəttə, dünya çempionatına qatılan 32 komandanın içində ilk dəfə bu səhnədə görünənlər də az deyildi – Çad, İsrail, Türkiyə, Polşa, Sloveniya, Özbəkistan və Mavritaniya kimi komandalar tarixlərində ilk dəfə bu yarışın ab-havasını hiss etdilər.

Afrika qitəsindən isə bəzi təəssüf doğuran xəbərlər də oldu. Misir millisi inzibati, Cənubi Afrika Respublikası isə maliyyə problemlərinə görə yarışdan kənarda qaldı. Onları isə BƏƏ və Argentina komandaları əvəz etdi. Meksika isə son anda iştirakdan imtina etdi və yerini İndoneziyaya verdi.

Çempionatın nəticələri isə artıq tarixdir: Azərbaycan – dünya çempionu, Macarıstan – ikinci, Serbiya isə üçüncü yerdə qərarlaşdı.

Bu çempionat təkcə qələbə ilə yox, həm də bir ruhla yadda qaldı. Maralzadənin gülümsəməsi, stadionun coşqusu, bayrağımızın zirvəyə ucalması – bütün bunlar tarixdə silinməz iz buraxdı.

Azərbaycan yalnız bir turnir təşkil etmədi – bir xalqın ruhunu dünyaya nümayiş etdirdi. Və bu ruhun adı Qələbə idi!

**Rafiq TƏHMƏZ**

## "Mömin ə xatun" komandası: "Birliyimiz gücümüz idi, çempionluq isə əzmkarlığımızın nəticəsidir"



# Naxçıvan voleybolçuları tarixi nəticə qazandı!

Azərbaycan çempionatında tarixi uğura imza atan Naxçıvanın voleybol komandasının üzvləri muxtar respublikaya qayıdıb. Komanda üzvləri Naxçıvan Beynəlxalq Hava Limanında böyük coşqu ilə qarşılanıblar.

Biz də "Şərq qapısı" komandası ilə birlikdə hava limanında olub onların yarışla bağlı təəssüratlarını dinlədik.

"Mömin ə xatun" komandasının kapitanı ***Həlimə Hüseynli*** qazandığı uğuru böyük qürur və sevinclə qeyd edərək deyir:



"Komandamızın ilk oyunu "İlkin VK" komandası ilə oldu. Səylə mübarizə apararaq bu oyunu 2:1 hesablı qələbə ilə başa vurduq. İkinci oyunumuzda isə "Abşeron" komandası ilə qarşılaşaraq yenə eyni hesabla – 2:1 qalib gəldik. Bu uğurlar bizim üçün çox sevindirici və ruhlandırıcı oldu. Üçüncü qarşılaşmamız "Zəfər" komandası ilə idi. Bu oyunda daha üstün oyun sərgiləyərək 2:0 hesabı ilə rəqibə şans vermədik. Yarımfinalda güclü rəqiblərdən biri olan "Baku VK" komandası ilə qarşılaşdıq. Hər iki tərəf xal mübarizəsində ciddi şəkildə yarışsa da, biz bu oyunu 3:0 hesablı qələbə ilə tamamlayaraq finala yüksəldik. Finala çıxmağımız bizi son dərəcədə sevindirdi".

Müsahibimiz bildirdi ki, final görüşündə ölkənin güclü komandalarından biri olan "Azərreyl" ilə qarşılaşdıq. Oyun olduqca gərgin və maraqlı keçdi. Dördüncü setdə 13:4 geridə olmağımıza baxmayaraq, ruhdan düşmədik və seti çevirərək oyunu 2:2 etdik. Beşinci və son setdə isə üstünlüyümüzü qoruyaraq 15:9 hesabı ilə qalib gəldik və finalı 3:2 hesabı ilə başa vuraraq çempion olduq. Bu qələbə bizim üçün çox böyük əhəmiyyət kəsb edir. Medalları alarkən yaşadığımız sevinc, xüsusilə də kuboku qaldırdığımız an hiss etdiyimiz qürur unudulmazdır. Komandamızın bu uğurunda əməyi olan bütün məşqçilərimizə sonsuz təşəkkürümüzü bildiririk. Komandamızla fəxr edir, bu qələbənin davamlı olmasını arzulayırıq.

Bakı şəhərində keçirilən 14, 16 və 18 yaşadək oğlan və qız voleybolçular arasında Azərbaycan birinciliklərində Naxçıvan Muxtar Respublikasının təmsilçiləri tarixi uğura imza atıblar. Yarışlarda muxtar respublika 3 qız və 2 oğlan komandası ilə təmsil olunub.

Oğlanlardan ibarət "Naxçıvan – U14" və "Naxçıvan – U18" komandalarının üçüncü yerə çıxmasından sonra uğurlu gedişatı bu gün 16 yaşadək qızlardan ibarət "Mömin ə xatun" komandası zirvəyə daşıyıb.

Mayın 31-dən etibarən yarışa qoşulan "Mömin ə xatun" komandası ilk mərhələdə "İlkin VK" və "Abşeron" komandalarına qarşı 2:1 hesablı qələbə qazanıb, sonra isə "Zəfər"dən 2:0 hesabı ilə üstün olub. Yarımfinalda "Bakı" komandası üzərində 3:0 hesablı inamlı qələbə final yolunu açıb. Finalda ölkənin aparıcı klublarından olan "Azərreyl" ilə qarşılaşan "Mömin ə xatun" böyük əzmkarlıq nümayiş etdirib. Gərgin və maraqlı keçən qarşılaşmada setlər 2:2 hesabı ilə başa çatdığından qalib tay-breykdə müəyyən olunub. Həlledici seti üstün başa vuran Naxçıvan təmsilçisi Azərbaycan çempionatının qalibi olub.

Qeyd edək ki, bu nəticə ilə ilk dəfə olaraq muxtar respublikanı təmsil edən bir voleybol komandası Azərbaycan çempionu adını qazanıb.

Qalib komandanın digər oyunçusu ***Kəmalə Mahmudlu*** deyir ki, birliyimiz gücümüz idi, çempionluq isə əzmkarlığımızın nəticəsidir. Bu gün qalib kimi Naxçıvana geri dönmək isə möhtəşəmdir.

İlk növbədə, komandamı təbrik edirəm Azərbaycan çempionu olmaq bizim üçün çox böyük bir qürurdur. İl ərzində biz çox çalışdıq, çətin vaxtlarımız oldu, amma biz bir-birimizə güvəndik və bu uğura imza atdıq. Bu qalibiyyət yalnız meydanda oynayanların deyil, bütün məşqçilərimizin, azarkeşlərimizin və bizi dəstəkləyən hər kəsin qələbəsidir. Gələcək hədəflərimiz daha böyükdür və biz dayanmayacağıq. Çox sevincliyik, bu anı çoxdandır ki, gözlüyürdük. Finalda isə rəqibimiz "Azərreyl" komandası idi. Oyunda bir az çətinlik çəkdik, geridə idik. Amma komanda olaraq ruhdan düşmədik. Biz bir-birimizi ruhlandırdıq və komanda kimi vuruşduq. 2:1 geri düşəndən sonra toparlandıq və son setdə gücümüzü göstərdik. 3:2 qalib gəldik. Həqiqətən, bu bizim üçün inanılmaz bir hissdir. Hamıya, məşqçilərimizə, komanda yoldaşlarımıza və bizi dəstəkləyən hər kəsə təşəkkür edirəm. Bu qələbə bizim hamımızındır.



Biz də "Mömin ə xatun" komandasına yolunuz açıq, uğurlarınız bol olsun deyib təbrik edirik.



# “MEDİAFEST-2025”dən geriyə qalanlar...






























## İtmişdir

Şərur şəhəri, kapitan Seyidov küçəsi, bina 3, mənzil 51-də Məmmədova Elnarə Fərman qızının adına olan mənzilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Yarımca kənd sakini Qasımov Rasim Ələsgər oğlunun adına olan JN-193$^{B}$ nömrəli, 10312018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək şəhəri, Qoşadizə məhəlləsi sakini Abdullayev Sultan Qadir oğluna məxsus 274 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək şəhəri, Qoşadizə məhəlləsi sakini Abdullayeva Bilqeyis Kalbaoruc qızına məxsus 115$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək Rayon Mədəniyyət İdarəsinin tabeliyində olan Babək rayon mərkəzləşdirilmiş kitabxana sisteminə məxsus möhür itdiyindən etibarsız sayılır.

***

Babək şəhəri, Qoşadizə məhəlləsi sakini Abdullayev Vəli Sadıq oğluna məxsus olan 104$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Ərəzin kəndində yaşamış Xudiyeva Səltənət Salman qızının adına olan 419$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Əliyeva Dostu Hüseynqulu qızının adına olan 258$^{A}$ nömrəli, 10300058 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Əliyeva Dostu Hüseynqulu qızının adına olan 2189 və 2189$^{C}$ nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Cəlilkəndində yaşamış Abdullayev Fikrət Həsən oğluna məxsus JN-559$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kəndində yaşamış Həsənov Həmid Əli oğlunun adına verilmiş JN-651$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Zeyvə kənd sakini Hüseynov Qəzənfər Məmməd oğluna məxsus JN-1357$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhriyar kəndində Seifili Məhəmməd Hüseyn oğlunun adına verilmiş JN-552$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” və JN-174 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Cəlilkəndində yaşamış Fərzəliyev İbrahim İsmayıl oğluna məxsus JN-155$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Yarımca kənd sakini Behbudov Maşallah Əşrəf oğlunun adına olan 133$^{A}$ nömrəli “Torpağa mülkiyyət hüququna dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Kükü kəndində Məmmədov Qabil Qurban oğlunun adına verilmiş JN-035$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Ərəzin kəndində yaşamış Əliyev Nağdəli Əli oğluna məxsus 214$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Qaraağac kənd sakini Kərimov Qadir Məhərrəm oğlunun adına olan JN-594$^{A}$ və JN-594$^{B}$ nömrəlı “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Kırna kənd sakini Allahverdiyev Gülməmməd Nəcəfqulu oğlunun adına olan JN-117$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkəndində yaşamış Nağıyeva Xanım Kərbəlayipiri qızının adına verilmiş JN-236$^{A}$ və JN-236$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kənd sakini Əliyeva Fatma Rüstəm qızının adına olan JN-502$^{A}$ nömrəli, 10308038 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

## Elanlar

Naxçıvan “Tikiş” Açıq Səhmdar Cəmiyyəti bildirir:

*1. 2024-cü ilin maliyyə uçotunun təhlili*
*2. Cəmiyyətin zərərlə işləməsinin səbəbləri*
*3. Dividentçilərin cəmiyyətə köməkliyi*
*4. Naxçıvan “Tikiş” Açıq Səhmdar Cəmiyyətinin Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilməsi haqqında*
*5. Digər məsələlər haqqında yığıncaq keçiriləcək.*

Yığıncaq Naxçıvan şəhəri, İdris Məmmədov küçəsi 1-də 30 iyun 2025-ci il saat 14$^{00}$-da olacaqdır.

***

Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kolleci 2025-2026-cı il tədris ili üçün əlavə (təkrar) orta ixtisas təhsili almaq üçün aşağıdakı ixtisaslar üzrə tələbə qəbulu elan edir:

*1. Mühasibat uçotu*
*2. Kompüter şəbəkələri və şəbəkə inzibatçılığı*
*3. Baytarlıq*
*4. Nəqliyyat vasitələrinin texniki istismarı.*

**Əlaqə: (036) 545-00-37**
**(036) 545-31-54**

ŞƏRQ QAPISI

**Baş redaktor:**
SARA ƏZİMOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 144

*Nömrəyə məsul:* **Aidə İbrahimova, Bülbül Quliyeva, Rafiq Təhməzov**
*Dizayner:* **Tacirə Vəliyeva**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*